# MÖMİNLƏRİN MƏRHƏMƏTİ

**Sonra isə o, iman gətirən, bir-birinə səbir və mərhəmət tövsiyə edənlərdən olmaqdır (Bələd surəsi, 17)**

HARUN YƏHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


- GİRİŞ
- QURANDA MƏRHƏMƏT NECƏ TƏSVİR EDİLİR?
- MÖMİNLƏR ŞƏFQƏTİ VƏ MƏRHƏMƏTİ KİMLƏRƏ GÖSTƏRİRLƏR?
- MÖMİNLƏRİN MƏRHƏMƏTLƏRİNİ ƏKS ETDİRƏN ƏXLAQ XÜSUSİYYƏTLƏRİ
- QURANIN QAZANDIRDIĞI MƏRHƏMƏT ANLAYIŞI YAŞANMADIĞI ZAMAN NƏLƏR OLAR?
- NƏTİCƏ
- DARVİNİZMİN SÜQUTU

# OXUCUYA

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu

səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran

əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə XXI əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Ətrafınızdakı insanlara "Mərhəmət nədir?" deyə soruşduğunuzda və ya "Mərhəməti mənə təsvir edər bilərsənmi?" dediyinizdə bir çox fərqli cavab və misalla qarşılaşarsınız. Bəziləri küçədəki ac itləri doyuran qonşusunun həyatında gördüyü ən mərhəmətli insan olduğunu söyləyər. Bəzisi mərhəməti, özünə xəstə olarkən baxan bir yaxınının göstərdiyi maraq və yaxınlığı nümunə verərək təsvir edər. Bəziləri ölənlərin arxasından ağlayan yoldaşının sanki mərhəmət simvolu kimi insan olduğundan bəhs edir. Ümumiyyətlə, təriflər bu şəkildə bir-birinə bənzəyir. Halbuki, bunların heç biri həqiqi mərhəməti tam mənasıyla ifadə etməz.

Həqiqi mərhəmətin qaynağı Allah sevgisidir. İnsanın Allaha olan sevgisi, Onun yaratdığı varlıqlara qarşı qəlbində bir sevgi hiss etməsinə səbəb olur. Allahı sevən insan, Onun yaratdıqlarına qarşı birbaşa məhəbbət, şəfqət və mərhəmət hiss edər. Özünü və bütün insanları yaradan Rəbbimizə qarşı hiss etdiyi bu güclü sevgi və bağlılıq səbəbindən, Quranda əmr edildiyi istiqamətdə insanlara qarşı gözəl əxlaqlı davranar. Allahın özünə, mərhəmət mövzusunda əmr etdiklərini yerinə yetirər. Bir insanın Quranın bu əmrlərini tamamilə yerinə yetirməsiylə həqiqi mərhəmət ortaya çıxar. Çünki həqiqi mərhəmətin nə mənaya gəldiyini və mərhəmətli bir insanın nələr etməli olduğunu ən doğru şəkildə təsvir edən qaynaq Qurandır. Quranda insanları həqiqi mərhəmətə yönəldən, bu mövzuda təşviq edən bir çox ayə vardır.

Ancaq Allaha duyulan sevgiylə, mərhəmət duyğusu arasında çox böyük bir fərq vardır. Bu fərq Allaha qarşı hiss edilən duyğunun yalnız saf sevgidən meydana gəlməsindən meydana gəlir. Mərhəmətdə, sevgiylə birlikdə qarşıdakının acizliyindən ötrü duyulan bir acıma hissi vardır. Allaha duyulan sevginin içində isə mərhəmət yoxdur. Çünki Allah bütün nöqsanlardan, acizliklərdən və qüsurlardan uzaqdır. İnsanın özünü və hər şeyi yaradan Allaha qarşı hiss etdiyi duyğu, ancaq ürəkdə coşğu, həyəcan, heyranlıq meydana gətirən güclü bir "eşq" hissidir. Bu səbəblə, saf sevgi yalnız Allaha duyular. Mərhəmət isə Allahın yaratdığı və hər biri "yaradılmış" olmaları səbəbiylə əslində aciz və gücsüz olan varlıqlara qarşı hiss edilər.

Quranda, həqiqi mərhəmətin necə olmalı olduğu, mərhəmətli bir insanın xüsusiyyətləri, mərhəmət hissinin bir insanın əxlaqında nə kimi fərqlər meydana gətirdiyi, mərhəmətli insanların ətraflarında yaratdığı təsir, müxtəlif

nümunələrlə izah edilmişdir. Allah ayələrində, mərhəməti və şəfqətin əskikliyindən qaynaqlanan zalımlığı çox təfərrüatlı olaraq təsvir etmişdir. Bunun nəticəsində yaxşılar və pislər, zalımlar və şəfqətlilər bir-birlərindən açıq şəkildə görülən fərqlərlə ayırd edilmişlər.

Möminlər quruluş olaraq Quran əxlaqından zövq alacaq və ancaq bu əxlaqı yaşadıqlarında hüzur duyacaq şəkildə yaradılmışlar. Bu səbəblə, Quranda bildirilən mərhəmət anlayışını yaşamaqda heç bir çətinlik hiss etməz, əksinə bunu imanlarından qaynaqlanan təbii bir əxlaq olaraq yaşayarlar.

Allah, **"Onların bəzi təbəqələrinə verdiyimiz fani dünya malına gözünü dikmə, onlara görə kədərlənmə, möminlər üçün də (şəfqət) qanadlarını gər"** (Hicr surəsi, 88) ayəsiylə möminləri mərhəməti yaşamağa dəvət etmişdir.

Allah möminlərin mərhəmətini **"şəfqət qanadlarını gərmək"** olaraq adlandırmışdır, çünki onlar mərhəməti yalnız müəyyən hadisələr qarşısında deyil, həyatın hər anını əhatə edən bir əxlaq modeli olaraq yaşayarlar. Bu səbəbdən də, onların mərhəmətlərini əks etdirən bir çox əxlaq xüsusiyyəti ortaya çıxar.

Bu kitabda Quran ayələri əsasında, möminlərin Allah sevgisinə əsaslanan mərhəmət anlayışlarının necə olduğunu, Quranın əmrləri istiqamətində bu əxlaqı həyatlarının hər anında necə yaşadıqlarını və kimlərə qarşı mərhəmət göstərdiklərini görəcəyik.

Bu kitab eyni zamanda bütün insanları Allahın bəyəndiyi əxlaqı və Quranda əmr edilən mərhəməti yaşamağa bir dəvətdir. Çünki Allah, iman gətirib yaxşı əməllər görən və möminlərə qarşı mərhəmətli olan qullarına, Qatından **"bir bağışlama və böyük bir əcr"** (Fəth surəsi, 29) olduğunu vəd etmişdir.

# QURANDA MƏRHƏMƏT NECƏ TƏSVİR EDİLİR?

**Sonra isə o, iman gətirən, bir-birinə səbir və mərhəmət tövsiyə edənlərdən olmaqdır. Onlar sağ tərəf sahibləridir. (Bələd surəsi, 17-18)**

Allahın, axirət günü qurtuluşa çatanlardan olmaları, rəhmətinə və cənnətinə qovuşa bilmələri üçün qullarına əmr etdiyi hökmlərdən biri ayədə görüldüyü kimi **"mərhəməti bir-birlərinə tövsiyə edənlərdən olmaq"**dır. Həyatlarını Allahın razılığını qazanmağa həsr edən möminlər də Allahın bu hökmünü əskiksiz və qüsursuz olaraq yerinə yetirməyə çalışırlar. Onların mərhəmət anlayışlarının əsasında Allaha olan səmimi imanları yatar. Möminlər Allahın iznindən kənarda heç bir hadisənin reallaşmayacağını və Onun özlərinə bəxş etdiklərinə nə qədər möhtac olduqlarını bilirlər. Bu səbəbdən, bu qavrayışdan qaynaqlanan bir təvazökarlığa sahibdirlər. Məhz bu xüsusiyyətləri də onların mərhəmətlərinin təməlini meydana gətirir.

Əks halda, yəni təvazökar olmayan bir insan gerçək mənada mərhəmətli də ola bilməz. Çünki yalnız özünü düşünər, özünü sevər və öz maraqları, öz nəfsinin istəkləri hər kəsdən üstün olar. Bu səbəblə, başqalarının ehtiyaclarını, əskikliklərini heç əhəmiyyətli hesab etməz. Özündən başqa kəsləri əhəmiyyətsiz və dəyərsiz görər. Bunun təbii bir nəticəsi olaraq da, kimsəyə qarşı şəfqət və mərhəmət hissləri bəsləyə bilməz.

Möminlərin mərhəmət göstərmədəki qətiyyətlərinin bir səbəbi də Allahın əxlaqını yaşamağa çalışmalarıdır. Allah, bir çox ayədə açıqlandığı kimi **"mərhəmətlilərin ən mərhəmətlisi"**dir. Bu səbəbdən, möminlər də mərhəməti, güclərinin çatdığı ən son sərhədə qədər yaşamağa çalışarlar.

Həmçinin möminlər, **"Əgər Allahın sizin üzərinizdə fəzli və rəhməti olmasaydı və Allah həqiqətən Rauf (şəfqət edən və) Rahim olmasaydı (nə edərdiniz)?"** (Nur surəsi, 20) ayəsiylə də bildirildiyi kimi, Allahın onlara olan şəfqətinə və mərhəmətinə möhtacdırlar. Allahın onlara mərhəmət etməsini istədikləri üçün də digər möminlərə qarşı əllərindən gəldiyi qədər mərhəmətli olmağa çalışarlar.

Hər mövzuda olduğu kimi “necə bir mərhəmət göstərəcəkləri” mövzusunda da onlara sərhədləri təyin və ölçünü təsbit edən, yol göstərənimiz Qurandır. Buna görə mərhəməti ancaq Allahın mərhəmət edilməsini bildirdiyi hallarda və yenə Allahın təyin etdiyi şəxslərə göstərirlər.

Qurana uyğun mərhəmət anlayışının fərqliliyi də məhz bu nöqtədə ortaya çıxar. Çünki din əxlaqından uzaq yaşayan insanların çoxu son dərəcə yanlış bir mərhəmət anlayışına sahibdirlər. Şahid olduqları bir hadisə qarşısında haqlını haqsızı bilmədən, ədalətli və ağıllı bir qiymətləndirmə etmədən və ən əhəmiyyətlisi Quranın hökmlərini nəzərə almadan cahil bir şəkildə kədərlənmə duyğusuna qapılar və bu baxış aspekti ilə hərəkət edərlər. Ümumiyyətlə də, həm özlərini, həm də qarşılarındakı insanları zərərə sala biləcək təşəbbüslər, səhv istiqamətləndirmələr edər və səhv qərarlar verərlər. Bu səbəbdən də yaşadıqları mərhəmət, Quranda əmr edilən gözəl əxlaqdan çox uzaq bir forma ortaya çıxarar.

Bununla əlaqəli olaraq əhəmiyyətli bir mövzunun da üzərində dayanmaq lazımdır. Xalq arasında Qurana görə yanlış bir mərhəmət anlayışı hakim ola bilər. Bu, qarşı tərəfə fayda yerinə zərər gətirəcək bir mərhəmət olması səbəbiylə “şeytani” bir mərhəmət olaraq xarakterizə edilə bilər. Din əxlaqından uzaq cəmiyyətlərdə insanlar, qarşılarındakı adamın axirətdə zərərə uğrayıb-uğramayacağını düşünmədən hər şeyi etmələrinə göz yumarlar. Məsələn, pis əxlaq göstərməsinə icazə verər, Allahın haram etdiyi hərəkəti tətbiqinə qarşı çıxmaz, hətta bu mövzuda köməkçi olarlar.

Möminlərin bu mövzuda özlərinə götürdükləri ölçü isə, göstəriləcək mərhəmətin qarşı tərəfin axirətini mütləq müsbət istiqamətdə təsir etməsidir. Bəzən bir möminə olan sevgi və mərhəmət, nəfslərinə çətin və ağır gələ biləcək bəzi nöqtələrdə onlara müdaxilə və ya tənqidlər etməyi tələb edə bilər. Qarşılarındakı adamın etdiyi pis hərəkətdə onu tənqid edə bilər, düşdüyü vəziyyətdən çəkindirəcək söhbətlər edə bilər, Quranın əmri olaraq pislikdən uzaqlaşdıra edə bilərlər. Əsl mərhəmət də budur.

Çünki möminlər bunları edərək, qarşılarındakı adamın nəfsinə ağır gələ biləcək söz söyləməyi, onun Qurandan kənar bir hərəkətini əngəlləməyi qəbul edə bilər, amma o adamın sonsuz həyatını cəhənnəm kimi geri dönüşü olmayan bir əzab içində keçirmələrini qəbul edə bilməzlər. Bu səbəblə də, Allahın ən bəyənəcəyi və ən çox məmnun olacağı əxlaqı yaşaması istiqamətində təşviq edərək onu cənnətə hazırlayır və bu səbəbdən də ola biləcək ən üstün mərhəmət nümunəsini nümayiş etdirərlər. Unutmamaq

lazımdır ki, əsl mərhəmətsizlik, qarşı tərəfin axirətini düşünmədən etdiyi səhvləri biləbilə seyr etməkdir.

Möminlərin göstərdikləri bu əxlaq anlayışında özlərinə götürdükləri bir nümunə isə şübhəsiz ki, Allahın **"çox böyük bir əxlaq"** (Qələm surəsi, 4) üzərində olduğunu bildirdiyi Peyğəmbərimiz (s.ə.v)-dir. Allah Peyğəmbərimiz (s.ə.v)-in üstün mərhəmət anlayışını bir ayədə **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir."** (Tövbə surəsi, 128) ifadəsiylə bildirmişdir.

Məhz bu əxlaqı özlərinə nümunə götürən inananlar da möminlərə qarşı, hər an onların axirət mənfəətlərini nəzərə alaraq, Allahın əmr etdiyi şəkildə şəfqətli və mərhəmətli davranarlar.

# MÖMİNLƏR ŞƏFQƏT VƏ MƏRHƏMƏTİ KİMLƏRƏ GÖSTƏRİRLƏR?

**Məhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir... (Fəth surəsi, 29)**

**... Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir.**

**(Fəth surəsi, 29)**

Möminlər hər mövzuda ölçülərini "doğrunu səhvdən ayıran" Qurana görə təyin edərlər. Quranda isə həqiqi mərhəmətin nə olduğu, hansı şərtlərdə, kimlərə və hansı ölçülər içərisində göstərilməli olduğu "açıq-aşkar ayələrlə" bildirilmişdir. Bu hissədə bu mövzular ətraflı olaraq izah ediləcək.

## Möminlərə göstərilən mərhəmət

Allah Quranda inananların **"kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətli"** (Fəth surəsi, 29) olduqlarını bildirmişdir. Ayənin bu ifadəsindən aydın olduğu kimi, möminlərin şəfqət və mərhəmət göstərdiyi kəslər yenə möminlər, yəni Allaha inanan, Ondan qorxub çəkinən insanlardır. Onlar bunu hər şeydən əvvəl Allahın əmri olaraq yerinə yetirirlər. Bununla yanaşı, möminlərin Allaha olan sevgilərini, Onun razılığını qazanmaq üçün göstərdikləri səyləri və yaşadıqları gözəl əxlaqı görmək də digər

möminlər üzərində təbii bir sevgi, şəfqət və mərhəmət meydana gəlməsinə səbəb olur. **"Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat verirlər."** (Maidə surəsi, 55) ayəsi gərəyi bir-birlərinin vəliləri olduqlarını bilir və bunun gətirdiyi səmimiyyət və sevgi ilə hərəkət edərlər. Bu xüsusiyyətləri bir başqa ayədə də belə ifadə edilmişdir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Məhz möminlər, bu dostluq anlayışı içərisində bir-birlərinə çətinlik verəcək hər cür təsiri ortadan qaldırmağa, dinclik, rahatlıq və hüzur verici mühitlər meydana gətirməyə çalışırlar. Digər mömin qardaşlarının da özləri kimi aciz qullar olduqlarını, bu səbəblə də hər zaman səhv etməyin, səhv düşünməyin, unutmağın mümkün olduğunu bilirlər. Buna görə də heç vaxt qəzəbə, ya da mərhəmətsizliyə qapılmadan bir-birlərini şəfqətlə doğruya dəvət edərlər.

Ancaq bununla yanaşı, Allah möminlərin inkar edənlərə qarşı "sərt" bir rəftar göstərmələrini əmr etmişdir. Çünki onlar Allahın dininə qarşı mübarizə aparan və hətta din əxlaqının yaşanmasını əngəlləməyə çalışan kəslərdir. Bu vəziyyətdə bu şəxslərə göstəriləcək mərhəmət bir mənada dinə gələcək zərərə göz yummaq deməkdir ki, məhz bu da möminlərin əsla icazə verməyəcəkləri və həyatlarının sonuna qədər mübarizə aparacaqları bir davranışdır. Bu səbəblə də, mərhəmətləri, Allahdan qorxan və var gücü ilə Onun razılığını qazanmaq üçün səy göstərən səmimi möminlərə istiqamətlidir.

# Hicrət edənlərə göstərilən mərhəmət

Quranda hicrət edənlər, "Allahdan fəzl axtarıb, Allaha və Onun Rəsuluna kömək edərkən yurdlarından və mallarından sürgün edilmiş" (Həşr surəsi, 8) kəslər olaraq təsvir edilir. Yenə bir başqa ayədə bu kəslərin yalnız **"Rəbbimiz Allahdır"** (Hac surəsi, 40) dediklərinə görə inkar edənlər tərəfindən haqsız yerə sürgün edildikləri bildirilir.

Allah Öz yolunda hicrət edən bu kəslərin mühafizəsi ilə möminləri vəzifələndirmiş və onların bir-birlərinin vəliləri olduğunu bildirmişdir:

**Həqiqətən, iman gətirən, hicrət edən və Allah yolunda öz malı və canı ilə cihad edən mühacirlər və sığınacaq verib köməklik göstərən ənsarlar – məhz onlar bir-birinin dostlarıdır... (Ənfal surəsi, 72)**

Allahın "sığınacaq verib köməklik göstərən" olaraq adlandırdığı möminlər, maddi-mənəvi sahib olduqları hər cür imkanı arxalarında buraxaraq onlara sığınan bu kəslərə, bəlkə də daha əvvəl heç tanımadıqları halda kömək əlini uzadırlar. Hicrət edib gələn bu kəslərin nə mal varlığının miqdarı, nə etibarları, nə də peşələri, onlar üçün heç bir əhəmiyyət kəsb etmir. Çünki onlar bu kəslərə yalnız Allaha iman etdiklərini söylədiklərinə görə dəstək olurlar. Həmçinin, bu kəslərdən nə o an üçün, nə də gələcəkdə bir qarşılıq ummazlar. Buradakı məqsədləri sadəcə Allahın razılığını qazana bilməkdir, bu səbəbdən verdikləri dəstəyin qarşılığını da yenə yalnız Allahdan gözləyərlər.

Möminlərin hicrət edənlərə etdikləri kömək onların gözəl əxlaqlarının və mərhəmət anlayışlarının bir gərəyidir. Amma əsl olaraq bu əxlaqı Allahın əmri olduğu üçün tətbiq edərlər. Çünki Allah, **"Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir"** (Nur surəsi, 22) ayəsiylə onlara bu öhdəliklərini bildirmişdir.

Allahın bu əmri gərəyi iman gətirənlər, hicrət edən kəsləri "mömin qardaşları" olaraq mənimsəyər və onlara qarşı son dərəcə şəfqətli bir rəftar

sərgiləyərlər. Əllərindəki maddi-mənəvi bütün imkanları bu kəslərlə paylaşar, onları saxlayacaq imkanlar təmin edər və qayğılarını öz üzərlərinə götürərlər. Rahat olmaları və çətinliyə düşməmələri üçün hər cür ehtiyaclarını onlar hələ dilə gətirmədən tək-tək təsbit edib aradan qaldırmağa çalışarlar.

Ancaq hər şeydən əhəmiyyətlisi möminlərin bütün bu fədakarlıqları özlərində bir sıxıntı hiss etmədən, sevərək və istəyərək etmələridir. Lazım olduğunda öz yeməklərini, paltarlarını, hətta evlərini onlara təqdim edər və bəlkə də özləri ehtiyac içərisində qalar, amma bundan ötrü ən kiçik bir narahatlıq və ya sıxıntı hiss etməzlər. Əksinə, hicrət edənlərə göstərdikləri bu mərhəmət onların vicdanlarını rahatlaşdırar. Allahın bəyəndiyi bir əxlaqı göstərmiş olmaqdan məmnun olarlar. Allah möminlərin bu əxlaqını, "**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır.**" (Həşr surəsi, 9) ayəsiylə açıqlamışdır. Allah üstün əxlaqlarından ötrü bu kəslərin **"nicat tapanlar"** olduqlarını da bildirmişdir. Bir başqa ayədə isə hicrət edənlərə Allah rizası üçün gözəl bir rəftar göstərənlər, Allahdan bağışlanma və bol ruzi ilə müjdələnmişdir:

**İman gətirən, hicrət edən və Allah yolunda cihad edənlər və sığınacaq verib köməklik göstərənlər - məhz onlar həqiqi möminlərdir. Onlar üçün bağışlanma və bolluca ruzi vardır. (Ənfal surəsi, 74)**

# Ana-ataya qarşı göstərilən mərhəmət

Ana-ataya qarşı yaxşı davranmaq, onlara mərhəmət göstərmək Quranın müxtəlif ayələrində təkrar-təkrar bildirilmiş bir hökmdür:

**Biz insana valideynləri ilə gözəl davranmağı buyurduq...**
**(Ənkəbut surəsi, 8)**

**Biz insana ata-anasının qayğısına qalmağı tövsiyə etdik...**
**(Əhqaf surəsi, 15)**

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: "Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!" – de.**

**(İsra surəsi, 23-24)**

Mömінlər Allahın ayələrdəki əmrləri səbəbindən, yaşlanaraq qayğıya möhtac vəziyyətə gəlmiş olan ana və atalarına qarşı son dərəcə şəfqətli bir rəftar sərgiləyərlər.

Quranın bu ayəsi bizə eyni zamanda ana-ataya qarşı göstəriləcək olan mərhəmətin ölçüsünü də verir. Allah **"onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!"** (İsra surəsi, 23) ifadəsiylə möminlərə, bu mövzuda ediləcək ən kiçik bir hörmətsizliyi, ya da mərhəmətsizliyi qadağan etmişdir. Bu səbəblə, möminlər öz yanlarında yaşlanaraq, qüvvətdən düşmüş

ana və atalarına qarşı son dərəcə hörmətli, incə düşüncəli, təmkinli və qayğılı bir rəftar göstərərlər. Onları rahatlıq təmin etmək üçün əllərindən gələni edərlər. Hörmətdə və mərhəmətdə qüsur etməməyə çalışarlar. Yaşlılığın gətirdiyi çətinlik və əziyyətləri nəzərə alar və onlar hələ dilə belə gətirmədən bütün ehtiyaclarını anlayışla və şəfqətlə aradan qaldırmağa cəhd edərlər. Həm maddi, həm də mənəvi baxımdan əksiklik və sıxıntı çəkməmələri üçün bütün imkanlarını səfərbər edərlər. Həmçinin hər nə olursa olsun, könül oxşayan və hörmətkar üslublarından güzəştə getməzlər.

Ancaq bütün bunlarla yanaşı, möminlərin ana-atalarıyla əlaqədar olaraq qarşılaşa biləcəkləri bir başqa vəziyyət də var. İman edən kəslərin ana-ataları bəzən inkar yolunu mənimsəmiş ola bilərlər. Belə bir inanc fərqliliyindən möminin göstərəcəyi rəftar isə, yenə gözəl sözlə və könül oxşayan bir üslubla onları doğru yola dəvət etməsi olacaq. Hz. İbrahimin bu mövzuda atasıyla etdiyi danışıqlar bizə belə bir vəziyyətdə istifadə ediləcək üslub və göstəriləcək rəftar mövzusunda yol göstərir. Hz. İbrahim, bütlərə sitayiş edən atasını bu sözlərlə haqq dinə dəvət etmişdir:

**Kitabda İbrahimi də xatırla! Həqiqətən, o, sadiq insan və peyğəmbər idi. Bir zaman o, atasına demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? Atacan! Həqiqətən, sənə gəlməyən bir elm mənə gəlmişdir. Arxamca gəl ki, səni doğru yola yönəldim. Atacan! Şeytana ibadət etmə! Həqiqətən, şeytan Mərhəmətli Allaha çox asi oldu. Atacan! Qorxuram ki, Mərhəmətli Allahdan sənə bir əzab toxunsun və beləcə, şeytana yoldaş olasan". (Məryəm surəsi, 41-45)**

Ancaq hz. İbrahimin atası kimi, bəzən belə gözəl bir üslub və hörmətli bir rəftarla edilən çağırışa razılıq etməyən kəslər də ola bilər. Mömin buna baxmayaraq, Allahın bu istiqamətdəki əmrinə görə, yaşlı və qayğıya möhtac olan ana və atasına qarşı olan hörmətli və mərhəmətli rəftarını pozmaz. Ancaq azğın bir inanc içərisində yaşadıqları üçün də din mövzusunda gətirdikləri fikirlərə etibar etməz və bu mövzuda onlara itaət etməz. Çünki mömin üçün din mövzusunda tək yol göstərici Allahın əmrləridir. Allah möminin belə bir vəziyyətdə göstərməli olduğu rəftarı da belə açıqlamışdır:

**Əgər onlar bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün səni məcbur etməyə cəhd göstərsələr, onlara güzəştə getmə! Dünyada onlarla gözəl davran. Mənə üz tutanların yolu ilə get! Sonra isə dönüşünüz Mənə olacaq, Mən də nə etdikləriniz barədə sizə xəbər verəcəyəm.**

**(Loğman surəsi, 15)**

## Yolda qalmış kəslərə göstərilən mərhəmət

Möminlərin mərhəmətinin bir başqa nümunəsini də yolda qalmış şəxslərə göstərdikləri rəftarlarda görmək mümkündür. İman edənlər, müxtəlif səbəblərdən ötrü getmək istədikləri yerə çatmaqda çətinlik çəkən kəslərə maddi-mənəvi hər cür köməyi edərək, onların gedəcəkləri yerə təhlükəsizlik içərisində çatmalarını təmin edərlər. Bu əsnada qarşılaşa biləcəkləri çətinlikləri hesablayaraq, bunlara qarşı təsirli tədbirlər görər və zəruri imkanları təmin edərlər. Allahın möminlərə yüklədiyi bu məsuliyyət Quranda belə bildirilmişdir:

**...Yolda qalmışa və sağ əllərinizin malik olduqlarına gözəlliklə davranın. Çünki, Allah özünü öyənləri və lovğalıq edənləri sevmir. (Nisa surəsi, 36)**

**Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah Biləndir, Müdrikdir. (Tövbə surəsi, 60)**

Allah ayələrində, bu kəslərə ediləcək maddi yardımlarla bərabər, onlara qarşı "gözəl davranılmasını" da əmr etmişdir. Möminlər yaşadıqları Quran əxlaqına görə bu kəslərə göstəriləcək olan "gözəl davranış" formalarının necə olduğunu vicdanları ilə asanlıqla tapar və zövqlə tətbiq edərlər. Yolda qalmış bir insanın nə kimi ehtiyacları ola biləcəyini düşünər və bu səbəbdən, vəziyyəti anlayan bir rəftar sərgiləyərlər.

Allahın bu müddəaları eyni zamanda Quran əxlaqının möminlərə öyrətdiyi məsuliyyət anlayışını və insanlıq dərəcəsini də ortaya qoyur. Yolda qalmış bir insanın belə məsuliyyətini boynuna götürən möminlər, ətraflarında olub bitən heç bir hadisəyə qarşı da laqeyd bir rəftar göstərməzlər. Zərər çəkmiş vəziyyətdə olan bir insana qarşı "mən bu insanı tanımıram", "bu hadisənin mənimlə bir əlaqəsi yoxdur" ya da "hər kəs öz başının çarəsinə baxsın" kimi səhv bir düşüncəylə hərəkət etməzlər.

Ehtiyac içərisində olan insanların yardım tələblərinə qarşı həssaslıq göstərər və imkanları ölçüsündə onlara dəstək olarlar. Bu mövzuda kömək təmin edə biləcək maddi bir imkana sahib olmadıqlarında isə, bu kəsləri yenə də öz başlarının çarəsinə baxsınlar deyərək buraxmazlar. Heç bir şey etməsələr belə ən azı onlar adına həll yolu axtararlar. Belə ki, çox vaxt ehtiyac içərisindəki insanın öz adına göstərdiyi cəhddən daha çoxunu göstərər və mövzunun həll yolunu tapana qədər də əl çəkməzlər.

Möminlərin göstərdiyi bu əxlaq və mərhəmət anlayışı onların Allaha dərin bir sevgi və qorxuyla bağlı olmalarından irəli gəlir. Bu bağlılıqlarından dolayı da Allahın əmr etdiyi Quran əxlaqını dəqiqliklə tətbiq edərlər.

# Yoxsullara göstərilən mərhəmət

Cahil cəmiyyətin insanları, kasıblara kömək mövzusunda son dərəcə həssas olduqlarını düşünürlər. Halbuki, bu kəslərin yoxsul insanlara olan rəftarları yalnız vərdiş olaraq yerinə yetirilən bəzi davranışlardan ibarətdir. Həqiqi bir həssaslıq isə ancaq Quran əxlaqının bu mövzuda gətirdiyi öhdəliklərin tam olaraq tətbiqi ola bilər.

Məhz möminlər Allah qorxularından ötrü Quranın kasıblara kömək ilə əlaqədar bütün hökmlərini əskiksiz olaraq yerinə yetirirlər. Onlar bunu Allahın bir əmri, eyni zamanda da vicdanlarının və mərhəmət anlayışlarının gərəyi olaraq tətbiq edərlər. Bu istiqamətdə maddi-mənəvi hər cür fədakarlığı sevərək və istəyərək yerinə yetirərlər.

Əvvəlcə, Allah Tövbə surəsinin 60-cı ayəsində, sədəqə veriləcək kəslər arasında kasıbları da sayaraq, möminlərin mallarından bu kəslərə sədəqə vermələrini fərz etmişdir. Yenə bir başqa ayədə də **"Onların mal-dövlətində dilənçinin və (iffətindən ötrü istəməyən) yoxsulun payı vardır."** (Zəriyət surəsi, 19) şəklində bildirilərək, bu öhdəliyin yalnız ehtiyac içərisində olduğunu söyləyən kəslər üçün deyil, eyni zamanda iffətindən ötrü bu vəziyyətini dilə gətirməyən kəslər üçün də keçərli olduğu açıqlanmışdır.

Allah bir ayəsində yüksək əxlaqlarından ötrü kasıblıqlarını dilə gətirməyən bu kəsləri belə tanıtmışdır:

**Sədəqə Allah yolunda cihad edən və yer üzündə hərəkət edə bilməyən yoxsullar üçündür. Bu adamlar həya edib dilənmədiklərinə görə tanımayan adam onları varlı hesab edir. Sən onları üzlərindən tanıyırsan. Onlar insanlardan israrla bir şey istəməzlər. Şübhəsiz ki, Allah malınızdan nə sərf etdiyinizi bilir. (Bəqərə surəsi, 273)**

Ayədə də bildirildiyi kimi, onlar insanlardan həmişə bir şeylər istəməzlər, amma möminlər mərhəmətləri və vicdanları gərəyi bu kəsləri bilər və əllərindən gələn hər cür yardımı edərək onların ehtiyaclarını aradan qaldırmağa çalışarlar. Lazım olduğunda öz mənfəətlərini gözardı edərək bu kəslərin ehtiyaclarına

üstünlük verərlər. Quranda möminlərin bu üstün mərhəmət anlayışları bir ayədə belə izah edilmişdir:

**Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər və deyərlər: "Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləyirik! (İnsan surəsi, 8-9)**

Göründüyü kimi möminlər, göstərdikləri mərhəmətdən, etdikləri köməkdən ötrü heç kimi minnət altında buraxmazlar və bir təşəkkür qədər belə qarşılıq ummazlar. Onların əsl hədəflədikləri yaşadıqları gözəl əxlaqla Allahın razılığını qazana bilməkdir. Çünki onlar axirət günü yoxsula haqqını verib-vermədikləriylə sorğuya çəkiləcəklərini bilirlər. Quranda, Allahın bu hökmlərini bilə-bilə yerinə yetirməməyin nəticəsinin cəhənnəm olduğu bir çox ayə ilə bildirilmişdir:

**"Sizi Səqərə salan nədir?" Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. "Kasıbı da yedizdirməzdik."**

**(Müddəssir surəsi, 42-44)**

**Mələklərə deyiləcək: "Onu yaxalayıb zəncirləyin! Sonra da Cəhənnəmə atın! Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun! Çünki o, Böyük Allaha iman gətirmirdi və heç kəsi kasıbı yedirtməyə rəğbətləndirmirdi." (Haqqə surəsi, 30-34)**

Allah axirətdə alınan bu qarşılığın bir səbəbinin də insanların yoxsulları doyurma mövzusunda bir-birlərini təşviq etməmələri olduğunu bildirmişdir:

**Dini yalan sayan o kimsəni gördünmü? O elə adamdır ki, yetimi qovarvə heç kəsi kasıba əl tutmağa sövq etməz. (Maun surəsi, 1-3)**

**Kasıbı yedirməyə bir-birinizi təhrik etmirsiniz.**

**(Fəcr surəsi, 18)**

Bununla yanaşı, möminlərin yoxsul kəslərə olan mərhəmətləri yalnız maddi yardımdan ibarət deyil. **"...valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin!..."** (Nisa surəsi, 36) ayəsi gərəyi ehtiyac içərisindəki bu kəslərə son dərəcə nəzakətli, hörmətli və insani bir rəftar göstərərlər. Yenə bir başqa ayə ilə Allah möminlərə, bütün ehtiyac içərisindəki insanlara olduğu kimi yoxsullara qarşı da bağışlayıcı və təmkinli bir rəftar göstərmələrini əmr etmişdir:

**Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir. (Nur surəsi, 22)**

Göründüyü kimi, möminlərin yoxsul kəslərə göstərdikləri gözəl əxlaq onlara olan mərhəmətlərini göstərir. Möminlər malı verənin də, alanın da Allah olduğunu, Allahın zənginliyi qarşısında bütün insanların kasıb olduğunu qavradıqları üçün yoxsullara qarşı da şəfqət və mərhəmətlə yaxınlaşarlar.

# Yetimlərə göstərilən mərhəmət

## Yetimin "qovulmaması" və "yaxşılıqla davranılması" ...

Möminlərin mərhəmət anlayışlarının bir başqa nümunəsi yetim uşaqlara olan rəftarlarından görülər. Ana və atalarını itirdikləri üçün bir başqasının qayğı və nəvazişinə möhtac qalan bu kəslərə göstərilməli olan ən gözəl rəftarlar Quranda bildirilmişdir. Möminlərin diqqətlə tətbiq etdiyi bu rəftarlardan biri, **"yetimlərin qovulmaması"** və onlara qarşı **"yaxşı davranılması"**dır.

Din əxlaqının yaşanmadığı cəmiyyətlərdə yetim olan bir uşağın hüquqlarını qoruyacaq, ya da gələcəyini hər baxımdan zəmanət altına alacaq bir sistem yoxdur. Bu mühafizə, insanların öz vicdanlarına buraxılmışdır. Bu səbəblə də, bir qisim insanlar bu uşaqların yaşlarının kiçikliyindən, təcrübə ya da bilik sahibi olmamalarından asanlıqla istifadə edə bilərlər. Yenə eyni şəkildə bu uşaqlar, haqlarını müdafiə edə biləcək kəsləri olmadığı üçün qayğılarını boynuna götürən şəxslər tərəfindən rahatlıqla pis davranışlara məruz qala bilərlər. Həmin kəslər, yetimləri himayə altına aldıqları üçün onları minnət altında qoyaraq etdikləri yaxşılıqları "başlarına vura bilər". Ya da ailənin digər üzvlərindən daha fərqli bir rəftara tabe edərək bu uşaqları həm mənəvi, həm də fiziki baxımdan əzə bilərlər. Halbuki, Allah Quranda yetimlərə qarşı mərhəmətsiz davranmağı, onlara əziyyət verməyi ayələriylə qadağan etmiş və bu cür çirkin davranışları göstərənləri qınamışdır:

**Dini yalan sayan o kimsəni gördünmü? O elə adamdır ki, yetimi qovar və heç kəsi kasıba əl tutmağa sövq etməz. Vay halına namaz qılanların – o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar və az bir şey verməkdən belə imtina edirlər. (Maun surəsi, 1-7)**

Quran əxlaqında isə bütün bu xoşagəlməz rəftarların əksinə yetim uşaqlara qarşı könül oxşayan, mərhəmətli, məmnunedici rəftarlar göstərilir. Quranda **"... yetimlərə və kasıblara yaxşı davranın, insanlara gözəl söz söyləyin**

**...**” (Bəqərə surəsi, 83) ayəsiylə bu hökm möminlərə bildirilmişdir. Möminlər də Allahın bu əmrini dəqiqliklə yerinə yetirirlər. Onların vicdan və insanlıq anlayışı, köməyə və qayğıya möhtac olan uşaqlara sahib çıxmağı, onlara ehtiyacları olan maddi-mənəvi hər cür diqqəti göstərmələrini təmin edər. Heç bir zaman kömək etdikləri üçün onları əzməz, minnət altında qoymaz və onlardan maddi-mənəvi mənfəət əldə etməyə çalışmaz. Əksinə bütün hüquqlarını qoruyur və əllərindən gələn ən mükəmməl rəftarları göstərərlər. Möminlərin bu mövzuda göstərdikləri qətiyyət, Allah qorxusundan, yüksək vicdan və mərhəmət anlayışlarından irəli gəlir.

## Yetimin islah edilərək faydalı bir insan halına gətirilməsi ...

**... Səndən yetimlər haqqında soruşurlar. De: “Onlara yaxşılıq etmək xeyirlidir. Əgər onları öz işinizə qatırsınızsa, bilin ki, onlar sizin qardaşlarınızdır”... (Bəqərə surəsi, 220)**

Yuxarıdakı ayə ilə Allah yetimlərin hər istiqamətdən faydalı insanlar halına gətirilmələrini tövsiyə etmişdir. Möminlər bu məsuliyyəti böyük bir şövqlə öz üzərinə götürür və bu kəslərə, hər şeyin ən doğrusunu və ən gözəlini öyrətməyə çalışırlar.

Ancaq bir uşağın yetişdirilməsində, onu himayə edənlərin üzərinə düşən ən böyük məsuliyyət, şübhəsiz bu adamın Allahı gərəyi kimi tanıması və Quranı əksiksiz olaraq öyrənməsidir. Çünki bütün bunlar bir insanı doğruya və qurtuluşa aparan ən əhəmiyyətli mövzulardır. Bu kəslər uşaqkən öyrəndikləri bu məlumatlar əsasında bir əxlaq formalaşdıracaq və axirət həyatlarına da ona görə hazırlanacaqlar. Bu səbəblə, yetim olaraq himayə altına alınan biri üçün, möminlərin ən diqqət göstərdikləri mövzulardan biri budur. Öz məsuliyyətlərindəki yetim uşaqların mömin olaraq üstün xüsusiyyətlər qazana bilmələri üçün lazım olan səyi göstərərlər. Əlbəttə ki, bu da ancaq Quran əxlaqının yaşanması ilə mümkün olur. Bu əxlaq onların ən əvvəl özləri, sonra da çevrələri üçün ən faydalı, ən ağıllı və ən çalışqan quruluşu qazanmalarını təmin edər.

## Yetimin malını qorumaq ...

Allah, miras yolu ilə mal sahibi olan yetim uşaqların mallarının haqsızlıqla əllərindən alınmasını haram qılmış və belə davrananları şiddətli bir şəkildə xəbərdar etmişdir:

**Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan oda girəcəklər. (Nisa surəsi, 10)**

Bu səbəblə möminlər, bir yetimin qayğısını boynuna götürdüklərində onun şəxsi mallarından öz maraqları üçün xərcləməz və onlardan bir mənfəət gözləməz. Əksinə, onlara Allahın bir əmanəti olan bu kəslərin haqq və mallarını, ən birinci özləri qoruyarlar.

Himayələri altındakı yetimlərin maddi varlıqlarını diqqətlə qorumaq, ancaq iman edən, yüksək əxlaqlı və Quranda tövsiyə edilən mərhəməti qavramış insanların etina edəcəyi bir mövzudur. Çünki qəyyumları yetimlərin malını xərcləmə səlahiyyətinə sahibdirlər. Bir insanın xərcləmə səlahiyyətinə sahib olduğu bir mülk üzərində şəxsi maraqlarına istiqamətli heç bir xərc etməməsi isə tamamilə vicdani bir mövzudur. Allah Quranda zəngin olanın bu mövzuda iffətli davranmasını, ancaq kasıb olanın əgər lazım olsa yetimin malından

Quranda bildirilən ölçülərə uyğun olaraq xərcləyə biləcəyini bildirmişdir. Allahdan qorxan və axirətdə etdikləri hər rəftarın hesabını verəcəklərini bilən möminlər bu mövzuda yüksək bir vicdan nümunəsi nümayiş etdirərlər. Çünki Allah yetimin malına göz dikərək bu maldan mənfəət təmin etmənin Öz Qatında bir cinayət olduğunu bildirərək möminləri bu mövzuda xəbərdar etmişdir:

**Yetimlərin mallarını özlərinə verin və yaxşını pis ilə dəyişməyin. Onların mallarını öz mallarınızla birlikdə yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır.. (Nisa surəsi, 2)**

Möminlər Allahdan və Onun axirətdəki əzabından qorxduqları üçün yetimlərin mallarını, onlar kifayət qədər əqli yetkinliyə çatana qədər böyük bir etina ilə mühafizə edərlər. Öz-özlərini sağlam və ağıllı mühakimə edə biləcək yaşa və yetkinliyə gəldiklərində də bu haqlarını onlara təhvil verərlər. Quranda bu təhvil vermə şərtləri belə bildirilmişdir:

**Yetimləri yetkinlik yaşına çatdıqda onları imtahana çəkin. Əgər onların yetkinliyə çatdıqlarını görsəniz, mallarını özlərinə qaytarın. Onlar böyüyüb mallarını məndən alacaqlar deyə o malı israfçılıqla, tələm-tələsik yeməyin. Varlı olan nəfsini saxlasın, yoxsul olan isə o maldan insafla yesin. Yetimlərin mallarını özlərinə qaytardığınız zaman onlara şahidlər tutun. Haqq-hesab çəkməyə Allah yetər.**

**(Nisa surəsi, 6)**

Möminlər Allahın yetimlərin qayğısı, təhsili və nəzarəti haqqında bildirmiş olduğu bütün bu hökmlərə diqqətlə tabe olarlar. Onların bu rəftarları din əxlaqından uzaq cəmiyyətlərin kimsəsiz uşaqlara olan davranışlarıyla müqayisədə Quran əxlaqının üstünlüyü açıq şəkildə ortaya çıxar.

# Borc içində olanlara göstərilən mərhəmət

Allah möminlərə mərhəmətli rəftarın çox gözəl başqa nümunəsini də borclu kəslərə qarşı göstərilməsini tövsiyə etmişdir:

**Əgər borclu olan adam ağır şərait içindədirsə, onun vəziyyəti düzələnə qədər ona möhlət verin. Bilin ki, borcu bağışlamaq sizin üçün daha xeyirlidir. (Bəqərə surəsi, 280)**

Borclu olub borcunu ödəyə bilməyəcək şəkildə zərər çəkmiş olan bir insan möminlərdən mütləq şəfqətli və anlayışlı bir rəftar görər. Mömin hər şeydən əvvəl ağıl və vicdan sahibi bir insandır. Bu səbəblə, çətin vəziyyətdə qalmış bir insanın içərisində olduğu şərtləri çox yaxşı qiymətləndirər və bu adam üçün ola biləcək ən vicdanlı və mərhəmətli rəftarı göstərər.

Borc əlbəttə ki, insanın yüklənmiş olduğu əhəmiyyətli bir məsuliyyətdir və qarşı tərəfə verilmiş bir sözdür. Necə ki, Quran ayələrində insanlara, verdikləri sözə əməl etmələri əmr edilmişdir. Ancaq Allah yuxarıdakı ayənin hökmü ilə, çətin vəziyyətdə qalma ehtimalına görə bu mövzuda qərarı borcu verən adama buraxmışdır. Bu adamın ödəmə müddətini uzada biləcəyini bildirildiyi kimi, mömin baxımından əsl xeyirli olanın bu borcu sədəqə olaraq bağışlaması olduğu da ifadə edilmişdir.

Ancaq bu mövzuda əhəmiyyətli bir şərt var. Mömin bu haqqını ancaq qarşı tərəfin dürüstlüyünə qənaət gətirdiyində bağışlayar. Yoxsa ciddi mənada çətin vəziyyətdə olmadığı halda, qarşı tərəfdən mənfəət əldə etmək məqsədi ilə saxtakarlığa üz tutan biri üçün bu vəziyyət keçərli deyil. Əks təqdirdə, səmimi Allah qorxusu daşımayan insanlar qarşılarında yaxşı niyyətli və dürüst insanlar olduğu zaman bu cür saxtakarlığa üz tutmağa cəhd edərlər.

Mömin bu nöqtədə vicdanına və ağlına üz tutar. Quranın bu hökmünü insanın həqiqətən də dürüst və səmimi bir yanaşma içərisində olduğuna qənaət gətirdikdən sonra həyata keçirər.

## “Qəlbləri dinə isindiriləcək” kəslərə göstərilən mərhəmət

**Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, kasıblara, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur. Allah Biləndir, Müdrikdir. (Tövbə surəsi, 60)**

Yuxarıdakı ayədə də göründüyü kimi, **“qəlbləri isinişdiriləcək”** olan bir qrup insandan bəhs edilir. Bu insanlar İslam dinini yeni tanımağa başlayan, ya da hələ tanımayan, ancaq iman etməsi üçün cəhd edilən kəslərdir.

Allahın onlar üçün seçdiyi dinin mükəmməlliyini və yaradılışlarına uyğun olduğunu görən möminlər, bu gözəlliyi özləri kimi bütün insanların da yaşamasını istəyərlər. Hətta Allahın, insanları dünya həyatında etdikləri əməllərə görə axirətdə sorğu-suala çəkəcəyini bildikləri üçün hələ vaxt varkən bütün insanları xəbərdar etməyə və onlara doğru yolu göstərməyə çalışarlar. Çünki insanlar üçün dünyada da, axirətdə də tək qurtuluşun din əxlaqını yaşamaq olduğunu bilirlər. Bununla yanaşı, Allah din əxlaqının digər insanlara izah edilməsini inananların üzərinə fərz etmişdir. Möminlərin bu xüsusiyyəti Quranda belə bildirilmişdir:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz... (Ali İmran surəsi, 110)**

Möminlər, insanların Quran əxlaqından uzaq bir həyatdan xilas olmaları və cəhənnəmdən çəkinmələri üçün hər cür fürsəti qiymətləndirərlər. Onları doğruya dəvət edər, yaxşılığa yönəldər, pis işləri qadağan edərlər. Burada məqsəd, cahilliklərinə görə uçurumun kənarında olan bu kəsləri çox gec

olmadan xilas edə bilməkdir. Allah bir insanın iman etmədən əvvəlki vəziyyətini bu şəkildə təyin edir:

**... Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz. (Ali İmran surəsi, 103)**

Dinsizliyin hakim olduğu bir həyatın insana gətirdiyi əzabı çox yaxşı bilən möminlər, insanların Allaha və Qurana iman etmələri və içində olduqları vəziyyətdən xilas ola bilmələri üçün çox müxtəlif yollar sınayarlar. "Qəlbi dinə isindiriləcək" olan kəslərə Quran əxlaqını izah etmə mövzusunda maddi-mənəvi heç bir fədakarlıqdan çəkinməzlər. Quranda, bu kəslərin imanı qavramaları üçün möminlərin qarşılıqsız olaraq etdikləri bütün maddi xərclər "sədəqə" olaraq adlandırılmışdır. Bu, Allah Qatında məqbul olan və qarşılığı gözəl olan xərcdir. Çünki bir insanın iman etməsi onun eyni zamanda cəhənnəm əzabından xilas olub, sonsuz cənnət həyatını qazanması deməkdir. Möminlərin heç bir qarşılıq gözləmədən bu xərcləməni etmələri isə, Allah qorxularından qaynaqlanan mərhəmətlərinin gərəyidir.

Çünki onların bu xərclər nəticəsində əldə edəcəkləri heç bir mənfəətdən söhbət gedə bilməz. Əksinə, bütün bunlar öz imkanlarından qısaraq və böyük fədakarlıqlar edərək həyata keçirdikləri yardımlar da ola bilər. Ancaq bütün bunları yalnız Allahın razılığını qazanmaq məqsədiylə etdikləri üçün heç bir qarşılıq gözləməzlər. Belə ki, "qəlbi dinə isindiriləcək" olan bu kəslərin bütün bu səylərin nəticəsində din əxlaqını yaşamağı qəbul etməmə ehtimalı da ola bilər. Ancaq bu vəziyyətdə də möminlər üçün boşa gedən bir şey yoxdur. Çünki bütün edilənlərin qarşılığı axirətdə özlərinə qüsursuz, hətta artıqlaması ilə veriləcəkdir. Tarix boyunca din əxlaqını izah etməklə vəzifələndirilən bütün elçilər bu həqiqəti dilə gətirmişlər:

**Ey qövmüm! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradandadır. Məgər anlamırsınız? (Hud surəsi, 51)**

**De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Təkcə onu istəyirəm ki, insanlar Rəbbinə tərəf aparan bir yol tutsunlar" (Furqan surəsi, 57)**

# Qadınlara göstərilən mərhəmət

## Qadının boşandıqdan sonra maddi baxımdan zəmanət altına alınması ...

Allah Quranda boşanan qadının dolanışığını təmin etməsi məqsədiylə, maddi baxımdan zəmanət altına alınmasının hər mömin kişinin üzərinə bir öhdəlik olduğunu bildirmişdir:

**Boşanmış qadınlara şəriətə müvafiq qayda üzrə yaxşılıq etmək lazımdır. Bu, müttəqilər üçün bir borcdur.**

**(Bəqərə surəsi, 241)**

Bəhs etdiyimiz yardımın miqdarı isə tərəflər arasında razılaşaraq təsbit edilir. Quranda möminlərin bu miqdarı təyin etməkdə qarşılarındakı insanın ictimai mövqeyini və hər cür ehtiyacını nəzərə alaraq vicdanlı davranmaları bildirilmişdir. Allah bu mövzuda möminlərə belə bir ölçü vermişdir:

**... Onlara şəriətə müvafiq qayda üzrə pay verin. Varlı öz imkanına görə, kasıb da öz imkanına görə versin. Bu isə yaxşılıq edənlər üçün bir borcdur. (Bəqərə surəsi, 236)**

**Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin**

**üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Allah zəngin olana da, kasıb olana da öz imkanları nisbətində kömək etməyi bildirmişdir. Cahil cəmiyyətlərdə boşanılan və artıq heç bir mənfəətin mümkün olmadığı birinə yüklü miqdarda maddi yardım etmək, boşa gedən xərc olaraq qiymətləndirilər. Bu səbəblə də, kişilər boşandıqları qadınlara mümkün qədər az miqdarda aliment verməyə çalışır və hətta bəzən sırf bu məqsəd üçün saxta üsullara üz tutmağa da çəkinməzlər. Ancaq mömin vicdanı və mərhəməti gərəyi bu mövzuda əsla bitərəf davranmaz.

Çünki mömin bu köməyi hər şeydən əvvəl Allahın razılığını qazanmaq üçün axirətə istiqamətli saleh bir əməl olaraq həyata keçirir. O insandan gələcəyə istiqamətli bir ümidinin qalmamış olması, ya da o insana olan şəxsi baxış aspekti onun üçün ölçü olmaz. Həmçinin insanlıq və mərhəmət anlayışı da köməyə möhtac bir kimsəyə ən yaxşı şəkildə kömək etməyi tələb edir. Bu səbəblə, zəngin olan kəs, qarşı tərəfin rahatlıq içində yaşaya bilməsi üçün bu imkanı ona verər. Eyni şəkildə, kasıb olan bir kəs də "necə olsa maddi imkanım yoxdur" deyərək bu məsuliyyətdən qaçmaz və öz şərtləri daxilində mütləq bu öhdəliyini yerinə yetirər.

## Qadına verilən malların boşandıqdan sonra geri alınmaması ...

**Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə yığın-yığın mal vermiş olsanız belə, heç bir şey geri almayın! Məgər verdiyinizi böhtan atmaq və açıq-aşkar günah işlətməklәmi geri alacaqsınız? Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz və onlar da sizdən möhkəm əhd-peyman almışdılar?**

**(Nisa surəsi, 20-21)**

Möminlər, yuxarıdakı ayənin hökmünə görə, evli qaldıqları müddət içərisində yoldaşlarına vermiş olduqları malları, boşanma qərarından sonra heç

bir şəkildə geri tələb etməzlər. Çünki bu mallar evlilik əsnasında qadına zəmanət olaraq verilmişdir və bunların geri alınması ehtimalına qadının çətin vəziyyətdə qalması deməkdir. Allah bu ehtimalı əngəlləmək üçün mömin kişiyə belə bir şərt qoşmuş və qadının ictimai mövqeyini zəmanət altına almışdır.

Həmçinin bu malın miqdarı nə qədər çox olursa olsun, Quranın bu hökmündə heç bir dəyişiklik olmaz. Mömin kişi malının hamısını yoldaşına vermiş belə olsa, boşandığında heç bir şey tələb etməz.

Göründüyü kimi, Qurandakı bu hökmlər, Allahın möminlərin qazanmalarını istədiyi mərhəmət anlayışının üstünlüyünü açıq şəkildə ortaya qoyur. Möminlər özləri çətin vəziyyətdə qalsalar da, Allahın göstərdiyi mərhəmət anlayışından güzəştə getməz və bu hökmü əskiksiz olaraq tətbiq edərlər.

## Qadınlardan, könüllərini xoş tutaraq və məmnun buraxaraq boşanılması ...

Dindən uzaq yaşayan cəmiyyətlərdə boşanma ümumiyyətlə müxtəlif narahatlıqlar və anlaşılmazlıqları da özü ilə gətirər. Bunun əsas səbəbi isə tərəflərin ortaq bir məntiq çərçivəsində razılaşmamalarıdır. Hər kəsin özünə görə bəzi tələb və iddiaları vardır ki, bunların doğruluğunu, ya da yanlışlığını təyin edəcək bir ölçüləri də yoxdur. Bu da onların bir çox nöqtədə bir-birləriylə münaqişələrinə və anlaşılmazlığa düşmələrinə səbəb olur.

Allaha inanan insanların həyatları isə cahil cəmiyyətlərdən olduqca fərqlidir. Onların həyatlarının hər anını nizamlayan, onlar adına ən doğru olanı təyin edən yol göstəriciləri vardır. Bu, Allahın insanlara rəhmət olaraq endirdiyi Qurandır. Qurana tabe olan insanların isə doğruları, səhvləri, iddiaları, tələbləri, qısacası, hər cür fikir və düşüncələri ortaqdır. Bundan əlavə, bu ortaq anlayışın təməli Allahın endirdiyi haqq kitaba əsaslandığı üçün mütləq ən gözəl və ən doğru nəticə ortaya çıxar. Bu anlayış içində evlənən insanlar, boşandıqlarında da eyni ortaq uyğunlaşma içində hərəkət edərlər.

Çünki möminlər üçün hadisələr və ya şərtlər dəyişə bilər, ancaq əsas olan Quran əxlaqını ən mükəmməl şəkildə yaşamaları və Allahın razı olacağı şəkildə hərəkət etmələridir. Bu səbəblə, boşansalar belə qarşılarındakı insana

göstərəcəkləri nəzakətdən, hörmətdən və mərhəmətdən güzəştə getməzlər. Allah bu mövzuda göstərilməli olan rəftarı möminlərə belə bildirmişdir:

**Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti sona yetişdiyi zaman onları ya şəriətə müvafiq qayda üzrə saxlayın, ya da müvafiq qayda üzrə buraxın. Zərər vurmaq və təcavüz etmək məqsədilə onları saxlamayın. Kim bunu etsə, ancaq özünə zülm etmiş olar.... (Bəqərə surəsi, 231)**

Allahın bu hökmü ilə möminlər könül razılığı ilə etdikləri evliliyi, lazım olduğu zaman, yenə könül razılığı ilə sona çatdırarlar. Evlənərkən yoldaşlarına göstərdikləri hörməti boşanma zamanı da qoruyarlar. Boşanmanı dava və ya inciklik səbəbi etməzlər. Allah rizası üçün evləndikləri kimi Allah rizası üçün boşanarlar. Bu səbəblə mömin bir kişi boşandığı yoldaşını nə sözləriylə, nə də rəftarıyla qətiyyən çətin vəziyyətdə buraxmaz. Hətta bir mömin bir başqa mömini imanından və əxlaqından ötrü sevdiyi üçün, boşandığı insana qarşı duyduğu imani sevgi, ehtiram və hörmət də hər zaman davam edər.

## Boşanılan qadınlar üçün sığınacaqların təmin edilməsi ...

Möminlər, Quran əxlaqının onlara qazandırdığı mərhəmətə görə, boşandıqları qadınları bir anda ortada buraxmazlar. Bu kəslərin özlərinə baxacaq ailələri, yaşaya biləcək maddi imkanları və hətta qala biləcəkləri başqa evləri belə olmaya bilər. Bu və buna bənzər şərtləri göz önündə saxlayan möminlər, qadın özünü bu istiqamətdə zəmanət altına alana qədər, boşanmış olduqları halda, ona hər istiqamətdən zəmanət təmin edərlər.

Qarşılıqlı seçimləri istiqamətində onların öz evlərində, ya da yenə öz nəzarətləri altındakı bir başqa yerdə sığınmalarını təmin edərlər. Ancaq bu davranışlarının tək məqsədi Allahın razılığını qazanmaq və mömin bir kimsəyə qarşı gözəl əxlaqlı və mərhəmətli bir rəftar sərgiləyə bilməkdir. Bunun xaricində ən kiçik bir mənfəət ümidi ola bilməz. Allah, bu müddət içərisində qadınları çətinliyə sala biləcək və ya onlara zərər verə biləcək heç bir rəftara yanaşmamağı kişilərə tövsiyə etmişdir. Qadınlara göstərilən bu şəfqətli yanaşma bir ayədə belə xəbər verilmişdir:

**Onlara gözləmə müddətləri başa çatanadək imkanınız daxilində öz yaşadığınız yerdə qalmağa yer verin. Sıxışdırmaq məqsədilə onlara zərər yetirməyin. Əgər onlar hamilədirlərsə, hamiləlikdən azad olana qədər onlara malınızdan xərcləyin. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. Öz aranızda xoşluqla razılığa gəlin. Bir-birinizi çətinliyə salsanız, uşağı əmizdirməyi başqa bir qadına həvalə edin. (Talaq surəsi, 6)**

Ayənin davamında isə boşanmadan sonra mümkün ola biləcək hər cür şərtin boşananlar arasında gözəlliklə və İslama uyğun bir şəkildə danışılaraq həll olunması tövsiyə edilmişdir. Bu cür bir razılaşmanı təmin edən dəyərlər isə şübhəsiz möminin Allah qorxusu, vicdanı və mərhəməti olacaq. Qarşısındakı insana hər şeydən əvvəl iman edən bir insan olmasından ötrü dəyər verən möminlər, bu kimsənin çətin vəziyyətdə qala biləcəyi, ya da incidilə biləcəyi ən kiçik bir rəftara belə icazə verməz və üstün bir əxlaq nümunəsi sərgiləyərək qadını onun istədiyi müddətə qədər saxlayar və ehtiyaclarını qarşılayarlar.

## Qadına zorla varis olmamaq ...

**Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onları sıxışdırmayın. Onlarla xoş rəftar edin. ... (Nisa surəsi, 19)**

Allah qadına verilən malın, onun açıq şəkildə iffətsiz bir rəftar içində olması xaricində heç bir şəkildə zorla geri alınmaması üçün möminləri xəbərdar etmişdir. Qurana görə qadına aid olan malın xərclənməsi, tamamilə öz razılığına buraxılar və bu mövzuda heç bir şəkildə təzyiq tətbiq edilməz.

Ancaq unutmamaq lazımdır ki, bütün bu dəqiqlik möminlərin Quran əxlaqını tam olaraq yaşamalarından qaynaqlanır. Allahdan qorxduqları üçün, şərtlər nə olursa olsun, qadınlara göstərdikləri bu mərhəmət anlayışlarında,

heç bir dəyişiklik olmaz. Belə ki, kimsənin görmədiyi, eşitmədiyi mühitlərdə belə qarşılarındakı insana eyni mərhəmət ilə yaxınlaşarlar. Allahın, etdikləri hər şeyə şahid olduğunu bildikləri üçün bu münasibətlərində səbir və qətiyyət göstərərlər.

Quranda qadının şəfqətlə qorunmasına və çətinliyə düşməsini əngəlləməyə istiqamətli daha bir çox tədbir mövcuddur. Bütün bunlar Quran əxlaqının qadına qarşı mərhəməti necə təşviq etdiyini və möminlərin də bu mərhəmət anlayışını necə dəqiqliklə tətbiq etdiklərini açıq şəkildə göstərir.

# MÖMİNLƏRİN MƏRHƏMƏTLƏRİNİ ƏKS ETDİRƏN ƏXLAQ XÜSUSİYYƏTLƏRİ

Kitabın əvvəlindən bəri möminlərin mərhəmətlərindən Quranın hansı ölçüləri içərisində və kimlərə göstərdikləri izah edildi. Möminlərin mərhəməti, Allah qorxularının və öz gözəl əxlaqlarının gərəyi olaraq yaşadıqları və bu səbəblə bu mövzudan heç bir şəkildə güzəştə getmədikləri də vurğulandı.

Bu hissədə isə möminlərin mərhəmət anlayışının həyatlarının hər mərhələsinə necə yayıldığı, özü ilə hansı gözəl əxlaq xüsusiyyətlərini gətirdiyi və möminlərin bu əxlaqı necə yaşadıqları izah ediləcək. Şübhəsiz möminlərin mərhəmətlərini əks etdirən xüsusiyyətləri olduqca çoxdur, ancaq burada bunlardan müəyyən olanlar ümumi başlıqlar altında nəzərdən keçiriləcək.

Burada xatırladılmalı olan əhəmiyyətli bir nöqtə, möminlərin Quranda ətraflı olaraq təsvir edilən bütün gözəl əxlaq xüsusiyyətlərini Allahın əmri olduğu və Allahdan çox qorxduqları üçün ən çoxunu üzərlərində daşımağa çalışdıqlarıdır. “Mərhəmət” isə möminlərin Quran əxlaqını haqqıyla, səmimi olaraq və bütün incəlikləriylə yaşamasını, bu əxlaqdan güzəştə getməmələrini, öz xeyirlərini güdməmələrini və hər vəziyyətdə müdafiə edən son dərəcə əhəmiyyətli təməl əxlaq xüsusiyyətidir.

Məsələn, mömin, Allahın qəti əmri olduğu və Allahın əzabından çox qorxduğu üçün, ölçüdə və çəkidə hiylə işlətməyi, bu şəkildə möminləri sıxıntıya və çətin vəziyyətə salmağı ağlından belə keçirməz. Ancaq bununla yanaşı, içində daşıdığı mərhəmət duyğusu onun Allahın bu hökmünü, hikmətlərini və incəliklərini qavrayaraq, hiss edərək və bundan böyük bir həzz duyaraq yerinə yetirməsini təmin edir. Bu şəkildə nəfsinin və şeytanın müxtəlif istəklərinə qarşı bütün qapıları bağlamış olur.

Mərhəmət hissləri kifayət qədər təkmilləşməmiş bir insanın, lazım olduğu kimi ədalətli, fədakar və dürüst olması da mümkün deyil. Mərhəmət sahibi olmayan bir insan, öz acizliyinin də fərqində olmadığı üçün Allahın mərhəmətinə ehtiyacı olduğunu ağlına gətirməz, bu səbəbdən Allahdan gərəyi

kimi qorxmaz. Allahdan gərəyi kimi qorxmadığı üçün də Quranda bildirilən üstün əxlaqı qazana və yaşaya bilməz.

Nəticədə Quranda bildirilən bütün əxlaq xüsusiyyətləri bir-birini tamamlayan, dəstəkləyən, qoruyub saxlayan və mükəmməlləşdirən xüsusiyyətlərdir. Birinin əskikliyi digərlərinin də gərəyi kimi yaşanmasını əngəlləyər. Birinin qüsursuz şəkildə yaşanması isə digərlərinin daha da mükəmməlləşməsinə yardımçı olur.

Aşağıda mərhəmət hissini intensiv şəkildə yaşayan möminlərin bu mərhəmətlərinin digər üstün əxlaqi vəsflərini necə müsbət istiqamətdə təsir etdiyini və mükəmməlləşdirdiyini görəcəyik.

## Ədalətlə hökm etmək

Mərhəmət, ədaləti qoruyub saxlayan və ədalətdən uzaqlaşmağı əngəlləyən çox əhəmiyyətli bir əxlaq xüsusiyyətidir. Mömin, bir insana düşməni də olsa zalım və mərhəmətsiz şəkildə rəftar göstərməz, hər vəziyyətdə və şərtdə sahib olduğu mərhəmət hissi onun ədalətdə güzəştə getməməsini təmin edər.

İman edən bir insanın, Allahın hər an etdiyi, danışdığı və hətta düşündüyü hər şeyə şahid olduğunu bildiyi üçün, ədalətsiz bir rəftara girməsi mümkün olmaz. Çünki Quranda möminlərə ədalətli olmaları əmr edilmişdir və mömin, Allahın dünyada edilən Qurandan kənar rəftarlara qarşı cəhənnəm əzabıyla qarşılıq verəcəyindən xəbərdardır. Quranda ədalətli olmağın əmr edildiyi bəzi ayələr belədir:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir.**

**(Nisa surəsi, 58)**

**Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə Kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar... (Hədid surəsi, 25)**

Burada açıqlanmalı olan əhəmiyyətli bir nöqtə də, möminlərin ədalət anlayışının fərqliliyidir. Cahil cəmiyyətlərdə ədalət deyildiyi zaman hər insandan ayrı bir fikir eşitmək və ayrı tətbiqlərə şahid olmaq mümkündür. Çünki hər insanın özünəməxsus ədalət anlayışı inkişaf etmişdir və bunu səlahiyyət sahibi olduğu sahələrdə istədiyi kimi həyata keçirər. Özünə görə səhvləri və doğruları var və insanları da bu dəyər mühakimələri istiqamətində qiymətləndirər.

Mömin üçün isə vəziyyət olduqca fərqlidir. Möminin ədalət anlayışının təməli, Qurana, yəni qatqısız Allah sözü olan və insanlara hər şeyin ən doğrusunu bildirən Haqq Kitaba əsaslanır. Allah sonsuz ədalət sahibidir. Onun sözünə uyan və əxlaqını Allahın bildirdiyi istiqamətdə şəkilləndirən bir mömin də hadisələr qarşısında təbii olaraq ən ədalətli rəftarı göstərər.

## Zülmə razılıq göstərməmək

Möminlər şahid olduqları, eşitdikləri, hətta bilvasitə yoldan xəbərdar olduqları zülmə istiqamətli heç bir hərəkətə qarşı laqeyd qalmazlar. Quran əxlaqından qaynaqlanan mərhəmətləri onları hər cür zülmə qarşı rəftar almağa, məzlumların haqqını qorumağa, onlar üçün mübarizə aparmağa yönəldir.

Qarşılarında ən yaxın dostları da olsa, heç tanımadıqları və heç bir mənafelərinin olmadığı xarici biri də olsa edilən zülmü əngəlləmə mövzusunda qətiyyətli davranarlar. Bu vəziyyətin Allahın razılığını qazanmaq və Quran əxlaqını tətbiq etmək üçün dəyərli bir fürsət olduğunu düşünərlər.

Cahil insanlar isə xüsusilə də tanımadıqları biri üçün belə bir səy içərisinə girmənin öz deyimləriylə "ağılsızlıq" olduğunu düşünərlər. Hətta "mənə toxunmayan ilan min il yaşasın" kimi məşhur bir atalar sözüylə də bu fikirlərini açıq şəkildə ifadə edərlər. Bu onların edilən yaxşılıqların və göstərilən gözəl

əxlaqın axirətdə qarşılarına çıxacağını unutduqlarından qaynaqlanar. Mömin isə bu vəziyyətin şüurundadır, bu səbəblə də, tanımadığı bir insana belə mərhəmətlə yaxınlaşıb onu zülmdən xilas etməyə çalışar.

Kimsə sahib çıxmasa və dəstək olmasa belə onlar tək başlarına bütün imkanlarını səfərbər edərək pisliyi əngəlləmyə çalışarlar. Əks şəkildə davranan insanlar çoxluq təşkil etsələr də onların vicdansızlıqları və laqeyidlikləri inananları zəifliyə vadar etməz. Axirətdə hər şahid olduqları hadisədə haqdan yana necə səy göstərdiklərindən hesaba çəkiləcəklərini və bu zülmün qarşısını almaq üçün nə etdiklərinin onlardan soruşulacağını bilirlər. Dünyada bir çox insanın etdiyi kimi "görmədim, eşitmədim, ya da bilmədim" deyərək məsuliyyətdən qaça bilməyəcəklərini bilirlər.

Laqeyidlik etdikləri təqdirdə itirənin, vicdanlı davrandıqlarında da qazanacaq olanın yalnız özləri olduğunu unutmazlar. Məhz bu səbəblə də, heç bir zaman belə bir vəziyyətə tamaşaçı qalıb laqeyd bir xarakter göstərməzlər. Hər hansı bir şəkildə zülm olarsa, öz işlərinə başları qarışıb heç bir şeyə şahid olmamış kimi bu hadisəni görməzlikdən gələ bilməzlər.

Cahil cəmiyyətlərdə isə bunun nümunələrinə gündəlik həyatda hər an rast gəlmək mümkündür. Məsələn, bir insanın qəza keçirdiyini və çətin vəziyyətdə olduğunu görən biri, sırf özü üçün bir problem çıxmasını istəmədiyi üçün görməzlikdən gələ bilər. Ya da haqsızlığa məruz qalan bir insan gördüyündə, haqsızlıq edən adamın hirsini üzərinə çəkməmək üçün buna səssiz qala bilər.

Möminin isə vicdanı çox həssas olduğu üçün mərhəmət anlayışı bu tərz hadisələrə göz yummasına qətiyyən icazə verməz. Ən əsas özü kimsəyə qarşı zülm, haqsızlıq kimi rəftar göstərməyərək bu əxlaqın qabaqcılı olar. Başqalarında şahid olduğunda isə bu vəziyyəti aradan qaldırmaq üçün əlindən gələn ən son nöqtəyə qədər səy sərf etməyincə vicdanı rahat olmaz. Çünki həqiqi mərhəmətdə zülmü görməzlikdən gəlmə, unutma, ya da diqqət etməmə kimi bir vəziyyət ola bilməz.

# Edilən səhvlərə qarşı bağışlayıcı olmaq

Mərhəmətin əhəmiyyətli göstəricilərindən biri də insanın bağışlayıcı ola bilməsidir. Allah Quranda iman edən qullarını "bağışlayıcı" olmağa belə çağırır:

**Sən bağışlama yolunu tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər. (Əraf surəsi, 199)**

Bu, insanın nəfsinə çətin gələ bilən, amma Allah qatında gözəl qarşılığı olan davranışdır. İnsan edilən səhv qarşısında hirsə qapıla bilər, ya da onu bağışlamağı istəməyə bilər. Amma Allah möminlərə bağışlamanın daha gözəl olduğunu bildirmiş və onları bu əxlaqa təşviq etmişdir:

**Pisliyin cəzası özü kimi pislikdir. Amma kim bağışlasa və barışsa, onun mükafatı Allaha aid olar... (Şura surəsi, 40)**

Bir başqa ayədə Allah **"Hər kim səbir edib bağışlasa, şübhəsiz ki, bu məqsədə uyğun işlərdəndir"** (Şura surəsi, 43) şəklində bildirərək bunun üstün bir əxlaq olduğuna diqqət çəkmişdir.

Həmçinin Allah, **"Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allahın sizi bağışlamasını istəmirsinizmi? Allah Bağışlayandır, Rəhmlidir."** (Nur surəsi, 22) ayəsiylə möminləri bu mövzuda öz vəziyyətlərini düşünməyə də təşviq etmişdir. Çünki həqiqətən də hər insan Allahın onu bağışlamasını, əsirgəməsini və rəhmət etməsini istəyər. Yenə eyni şəkildə səhv etdiyi zaman, ətrafındakı insanların onu üzrlü görməsini və bağışlamasını diləyər. Məhz Allah möminlərə bu vəziyyəti xatırladaraq onlara edilməsindən xoşlandıqları bir rəftarı, başqalarına

da göstərmələrini bildirmişdir. Əlbəttə bu, möminlər arasında mərhəməti təşviq edən əhəmiyyətli bir əmrdir.

Möminlər digər möminlərə qarşı, səhvləri hər nə olursa olsun, bağışlayıcı bir münasibət göstərərlər. Ancaq onların bağışlamaları, cahillik əxlaqını yaşayan kəslərin bağışlamasından çox fərqlidir. Din əxlaqını yaşamayan insanlar, çox vaxt dilləriylə qarşılarındakı insanı bağışladıqlarını söyləsələr belə, edilən səhvə qarşı qəlbən duyduqları kin və qəzəbdən xilas olmaları olduqca uzun sürər. Rəftarları ümumiyyətlə bu qəzəbi əks etdirəcək sitəmkarlıq şəklindədir. Əllərinə ilk fürsət keçdiyində də onsuz da ürəklərində topladıqları bu kin və qəzəbini dilə gətirərlər.

Möminlərin bağışlama şəkli isə tamamilə səmimiyyətə əsaslanır. İnsanın səhv edə biləcək bir quruluşda yaradıldığını bildikləri üçün, hələ ilk əvvəldən qarşı tərəfə təmkinlə yaxınlaşarlar. Çünki Quranda bəhs edən tövbə ilə əlaqədar ayələr, insanın səhv etməyə açıq bir varlıq olduğunu, ancaq əhəmiyyətli olanın bu səhvi bilən kimi bir daha təkrar etməməklə dərhal imtina etmək olduğunu bildirir. Bu ayələrdən biri belədir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. (Nisa surəsi, 17)**

İnsanın səmimiyyətini ifadə edən bu şərtlər meydana gəldiyi müddətcə möminlər də bir-birlərinə qarşı son dərəcə bağışlayıcı və mərhəmətli bir rəftar göstərərlər. Tövbə etdiyi, peşmanlıq duyduğu, düzəltməyə çalışdığı səhvlərindən ötrü bir möminə qarşı içlərində kin bəsləməzlər. Səmimi olaraq bağışlamışsa kimsəni keçmişdə etdiklərindən ötrü mühakimə etməz və əsl əhəmiyyətli olanın insanın son anda göstərdiyi əxlaq olduğunu bilərlər.

Möminlərin bağışlayıcılığının bir fərqi də budur: Onlar, özləri tamamilə haqlı olduqları və qarşı tərəfin tamamilə haqsız olduğu bir vəziyyətdə belə heç tərəddüd etmədən bağışlaya bilərlər. Çünki Allah bunun gözəl bir əxlaq xüsusiyyəti olduğunu bildirərək möminlərə tövsiyə etmişdir:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali İmran surəsi, 134)**

Allahın bu hökmünü nəzərə alaraq öz haqlarından asanlıqla imtina edər və göz yumaraq qarşı tərəfə gözəl əxlaqları ilə nümunə olarlar.

Bu mövzuda yenə Quran əxlaqının gətirdiyi böyük bir fərq vardır; möminlər bağışlama mövzusunda səhvləri böyük, ya da kiçik deyərək ayırmaz və səhvə görə fərqli bir bağışlama anlayışı meydana gətirməz. Səhvi edən insan istəmədən böyük bir can, ya da mal itkisinə səbəb olmuş və bu da qarşı tərəfin maraqlarına böyük ölçüdə zərər vermiş ola bilər. Ancaq meydana gələn hər hadisənin Allahın izni ilə və bir qədər daxilində baş verdiyini bilən mömin, bu cür bir hadisəni təvəkküllə qarşılayar və şəxsi kin bəsləməz.

Yenə bu insan cəhalət nəticəsində Quranın hökmünə qarşı gəlmiş və Allahın qoyduğu sərhədləri aşmış ola bilər. Ancaq bu rəftarlarından ötrü insanı mühakimə edəcək olan yalnız Allahdır. Bu səbəblə, bu mövzuda mühakimə etmək və insanı bağışlamamaq kimi bir rəftar möminlərin məsuliyyətində deyil. İnsanın səmimi olaraq tövbə edib bu rəftarından peşman olması vəziyyətində alacağı qarşılıq Allah yanındadır. Necə ki, Allah bir çox ayəsində "Allaha şərik qoşma" xaricində möminlərin səmimiyyətlə imtina etdikləri səhvlərini bağışlayacağını bildirmişdir. Möminlər bunu bilmədikləri üçün onlar ancaq Allahın bildirdiyi şəkildə bağışlayar və əgər bu mövzuda Quranda bildirilən bir şərh varsa, səhv edən insana bu istiqamətdə davranarlar.

Ancaq bunu bir daha xatırlatmaq lazımdır ki, mömin üçün bağışlamada ölçü qarşı tərəfin səmimiyyəti və yaxşı niyyətidir. Bunu da mömin, vicdanı və ağlı ilə analiz edər. Pisliyi vərdiş halına gətirib qarşı tərəfin mərhəmətindən və gözəl əxlaqından istifadə etməyə çalışan birinə əlbəttə icazə verilməz. Belə bir vəziyyətdə qarşı tərəfə göstəriləcək əsl mərhəmətin yalnız bağışlamaq olmadığını bilir və onu səmimiyyətə, dürüstlüyə və Allahdan qorxmağa dəvət edərək mərhəmətini fərqli bir şəkildə ifadə edər.

# Yaxşılıq və təqva mövzusunda yardımlaşmaq

Möminlər bir-birlərinə olan mərhəmətlərini, bir-birlərini Allahın rizasının ən çoxunu qazanacaq rəftarlara təşviq edərək göstərirlər. Həqiqi şəfqətin qarşılarındakı kimsəni cənnətə ən layiq olacaq şəkildə hazırlamaq olduğunu bilirlər. Məhz bu səbəblə də, bu mövzuda güclərinin çatdığı nisbətdə köməkləşər və bir-birlərinin əskiklərini tamamlamağa, səhvlərini düzəltməyə çalışarlar. Bu yardımlaşma eyni zamanda da Allahın əmri və Quran əxlaqının gərəyidir. Quranda bu yardımlaşmanın sərhədləri belə bildirilmişdir:

**... Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir. (Maidə surəsi, 2)**

Ayədə də açıqlandığı kimi, möminlər "günah və həddi aşma" mövzusunda yardımlaşmazlar. Əslində bu da onların mərhəmət anlayışının nəticəsidir. Onlardan bu istiqamətdə bir kömək tələb edildiyində, "xatir qırmamaq üçün" ya da "kömək etməsəm ayıb olar" kimi bir məntiqlə hərəkət etməzlər. Çünki qarşılarındakı insanın, o an üçün qəmgin olsa belə axirətdə qəti olaraq bu rəftardan razı olacağını və ən gözəl mərhəmət şəklinin günah işləməsinə icazə verilməməsi olduğunu anlayacağını bilirlər.

Yuxarıdakı ayədə Allah məqbul olan yardımlaşmanın "yaxşılıq və təqva" mövzusunda lazım olduğunu bildirmişdir. Quranda bizə yaxşılığın nə olduğunu belə açıqlanmışdır:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə,**

**dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

Göründüyü kimi, həqiqi yaxşılıq, cəmiyyətdə qəbul edilən şəklindən fərqlidir. Quran əxlaqını yaşamayan kəslər yaxşılığı, insanın canı istədiyi zaman, qarşı tərəfə lütf olaraq yardım olduğunu hesab edərlər. Lakin bu, insanın həmişə deyil, ancaq bəzi zamanlar tətbiq etdiyi bir davranışdır. Ümumiyyətlə, bu yaxşılıqlar yolda görülən bir dilənçiyə pul vermək, səfərdə yaşlılara yer vermək, ya da bişirilən yeməkdən qonşuya vermək kimi ənənələrlə məhduddur. Daha da əhəmiyyətlisi bunların hamısı insanın mənfəətlərini çox zədələməməsi şərtiylə qəbul edilir.

Halbuki Bəqərə surəsindəki ayədə gördüyümüz kimi, Quranda bildirilən yaxşılıq möminin bütün həyatını əhatə edən əxlaq şəklidir və yalnız insanın canı istədiyində, ağlına gəldiyində deyil, bütün həyatı boyunca tətbiq etdiyi bir ibadətdir. Həmçinin heç bir şərtə bağlı deyil. Mömin lazım olduğunda yaxşılıq edə bilmək və başqalarını yaxşılığa təşviq edə bilmək üçün hər cür fədakarlığı gözə ala bilər.

Yardımlaşmağı istənilən bir digər mövzu da "təqva"dır. "Təqva" sözünün mənası isə, "axirətdə insana zərər verəcək, sonsuz bir əzaba yol açacaq və dünyada da çətinlik, dağıtma, fəlakət kimi şeylərə səbəb olacaq şeylərdən çəkinmək-qorxmaq, nəfsi hər cür günah və üsyandan, pozulma və azmalardan qorumaq" deməkdir. Quranda təqva ilə əlaqədar bəzi ayələr belədir:

**... Sizin etdiyiniz yaxşılıqları Allah bilir. Özünüzlə azuqə götürün! Ən yaxşı azuqə isə təqvadır. Məndən qorxun, ey ağıl sahibləri! (Bəqərə surəsi, 197)**

**Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir. Bu, Allahın dəlillərindəndir. Bəlkə düşünüb onlardan ibrət alasınız. (Əraf surəsi, 26)**

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Quranda bizə, Allah Qatında əsl dəyər görəcək olanın, edilən işin mahiyyəti deyil, nə niyyətlə edildiyi və bir insanın bu işi edərkən səmimi davranıb-davranmadığı olduğu bildirilir. Bir ayədə bu mövzuya belə bir nümunə verilmişdir:

**Onların nə əti, nə də qanı, Allaha çatmaz. Ona yalnız sizin təqvanız çatar.... (Həcc surəsi, 37)**

Buna gündəlik həyatdan da bir çox nümunə vermək mümkündür. Misal üçün bir kimsə kasıblara pul köməyi edə bilər, çoxköməksevər, incə düşüncəli və fədakarcasına rəftarlar göstərə bilər. Ancaq buradakı ölçü budur; əgər bu insan bütün bunları edərkən, Allahı razı edə bilmə ümidiylə və yalnız Allahın təqdirini qazanmaq məqsədiylə hərəkət edirsə rəftarı təqvaya uyğundur. Əgər insanların məmnuniyyətini, tərifini qazanmaq, nümayiş etdirmək kimi bir niyyəti varsa, bu vəziyyətdə bütün etdiklərinin boşa getmiş olma ehtimalı vardır. Çünki, insan axirətdə təqvasına görə qarşılıq görəcək.

Allah həm yaxşılıq edilməsini, amma bu yaxşılığı edərkən də niyyətin səmimi olmasını şərt qoymuşdur. Möminlərin aralarındakı yardımlaşmaları da məhz axirətdə dəyər görəcək bu iki mövzu üzərinə qurulmuşdur ki, gerçək mərhəmət də bu istiqamətdə yardımlaşma tələb edir.

Möminlər bir başqasına ancaq rahatlıq və hüzur gətirmə şərtiylə kömək edərlər. Məsələn, bir insanın sağlamlığına zərər gəlməsinə mane olmaq, daha rahat yaşamasını təmin etmək, sevincini artırmaq üçün, imanını gücləndirmək, daha hüzurlu bir ortam təqdim edə bilmək üçün, başına gələn çətin vəziyyətdən xilas olmaq üçün kömək edərlər. Yəni edilən yardımın nəticəsində kömək edilən insanın iman, sağlamlıq, sevinc, hüzur, rahatlıq, gözəllik olaraq irəliləmiş olması əsasdır.

Ancaq Quranın mərhəmət anlayışından məhrum olan kəslər qarşı tərəfə kömək edərkən belə bir dəyərləndirmə etməzlər. Edəcəkləri köməyin nəticəsində insanı zərərə uğrama ehtimalını belə düşünməzlər. Misal olaraq qumar, fahişəlik və ya fırıldaqçılıq kimi bir məqsəd istiqamətində istifadə edilməsi üçün borc pul vermək, qarşı tərəfə böyük bir pislik etmək deməkdir. Bu insan təmin edilən bu köməklə həm dünyada böyük çətinlik içərisinə girəcək, həm də Allahın haram qıldığı bir işə girişdiyi üçün axirətdə pis bir qarşılıq görəcək.

Günah mövzusunda edilən bu köməkləşmə, köməyi təmin edən insana da böyük bir məsuliyyət yükləyəcək. Günah işlənməsinə vəsilə olan bir insan da ən az bu rəftarı göstərən insan qədər səhv davranmış deməkdir. Bu səbəblə Allah, bu kəslərin axirətdə bu köməklərindən ötrü əzabla qarşılaşacaqlarını, amma artıq bir-birlərinə kömək edə bilməyəcəklərini bildirmişdir:

**Günahkarlara deyiləcək: "Sizə nə olub ki, bir-birinizə kömək etmirsiniz?" Bəli, onlar bu gün baş əyəcəklər!**

**(Saffat surəsi, 25-26)**

Yaxşılıq və təqva mövzusunda yardımlaşanlar isə belə qarşılıq alacaqlar:

**Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pislik gətirərsə, ona ancaq gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz. (Ənam surəsi, 160)**

**... Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir.**

**(Şura surəsi, 23)**

# Yaxşılığı əmr edib, pisliyi qadağan edənlərdən olmaq

Dünya üzərində həqiqi yaxşılıq və həqiqi pisliyin nə olduğu məlumatına şübhəsiz yalnız möminlər sahibdirlər. Çünki onlar bu anlayışların mənalarını və əhatə etdiklərini, Allahın "doğrunu səhvdən ayıran" kitab olaraq göndərdiyi Qurandan öyrənərlər. Quranda, doğru və yanlış, yaxşılıq və pislik kimi anlayışlar, nümunələr verilərək hər insanın anlaya biləcəyi kimi açıqlanmışdır. Həmçinin möminlərə, Allahdan qorxmaları səbəbiylə, yaxşını pisdən ayırd etmələrini təmin edən bir nur və anlayış da verilmişdir. (Ənfal surəsi, 29) Ancaq İslam əxlaqında insanın doğrunu və yanlışı yalnız özünün bilməsi kifayət deyil. Doğruları görməyə və tövsiyəyə açıq olan hər insanı Quran əxlaqını yaşamağa dəvət etməsi lazımdır. Bu səbəblə, möminlər bütün həyatları boyunca insanlara yaxşı ilə pisin arasındakı fərqi izah edərlər. Allah möminlərə belə əmr etmişdir:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

**Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allahın qoyduğu hüdudlarını qoruyan o möminləri müjdələ. (Tövbə surəsi, 112)**

Quranda həmçinin Allahın bu əmrini yerinə yetirən insanların digər insanlar üçün nə qədər xeyirli kimsələr olduqlarına da diqqət çəkilmişdir:

**Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi,**

**əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə haqq yolunu azmış fasiqlərdir. (Ali İmran surəsi, 110)**

Möminlərin, insanlara yaxşılığı nəsihət edib, pislikdən çəkindirməyə çalışarkən göz qarşısında saxladıqları əhəmiyyətli bir ölçü vardır; qarşılarındakı insanın nə keçmişi, nə də o an etdiyi səhv davranışları onlarda ön mühakimə meydana gətirməz. Kimsəyə səhvlərindən ötrü "necə olsa bu insan mömin olmaz" gözü ilə baxmazlar. Heç kimi, din əxlaqını izah etmə mövzusunda gözardı etməzlər. Belə bir rəftarın ədalətsizlik olduğunu bilir və bundan çəkinirlər. Digər insanların gözəl əxlaqı yaşaya bilmələri üçün, əvvəl möminlərin bildiyi məlumatlara sahib olmaları və eyni şəkildə öyrədilmələri lazımdır. Bu səbəblə möminlər, insanların rəftarları nə qədər mənfi olursa olsun, yaxşılığa çağırmaqda və pislikdən çəkindirməkdə, doğru olanı izah etməkdə tərəddüdə düşməzlər.

Ancaq bütün bu izahatlara baxmayaraq qarşı tərəf öz baxış aspektində israrlı davranarsa, bu vəziyyətdə də heç bir şəkildə məcburiyyət tətbiq etməzlər. Çünki Allah Quranda **"Dində məcburiyyət (təzyiq) yoxdur ..."** (Bəqərə surəsi, 256), **"Bu halda, öyüd və xatırlatma bir fayda təmin edəcəksə, öyüd verib xatırlat"** (Əla surəsi, 9) şəklində bildirmişdir.

Möminlər, Quranın yaxşılığı əmr etmə hökmünü yalnız doğru və səhvi heç bilməyən və dini heç tanımayan insanlara deyil, eyni zamanda möminlərə qarşı da tətbiq edərlər. Çünki insan sadəcə bilmədiyindən deyil, bəzən də unutduğundan, yanıldığından, ya da nəfsinin təlqinlərinə uyduğuna görə səhv edə bilər. Məhz bu vəziyyətdə möminlər bir-birlərinə Quranın hökmlərini xatırladaraq yaxşılığı əmr etmiş və pisliyi əngəlləmiş olarlar. Dünya həyatında ancaq yaxşılıq edənlərin və saleh əməllər işlədənlərin cənnətlə müjdələnəcəklərini, pislikdən çəkinməyənlərin isə cəhənnəm əzabıyla qarşılıq görəcəklərini bildiklərindən bir-birlərini bu istiqamətdə xəbərdar edərlər. Allah möminlərin bir-birləri üzərində nəzarətçi olduqlarını və bir-birlərinin vəliləri olduqlarını bildirmişdir:

**Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət**

**edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 71)**

Həmçinin möminlər bu ibadəti yerinə yetirmək mövzusunda heç zaman sıxılmazlar. Qarşılarındakı insanlar nə qədər çox səhv etsə də səbirlə, şəfqətlə və mərhəmətlə xəbərdar etməyə və xatırlatmağa davam edərlər. Çünki Allah bir çox ayəsində səbir edənləri sevdiyini bildirərək, möminləri Quran əxlaqını tətbiq etməkdə səbirli olmağa dəvət etmişdir.

## Pisliyə ən gözəl şəkildə qarşılıq vermək

Allah Quranda inananlara pisliyə yaxşılıqla qarşılıq verməyi əmr etmişdir:

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən pisliyi yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar. (Fussilət surəsi, 34)**

**Sən pisliyi yaxşılıqla dəf et. Biz onların aid etdikləri sifətləri daha yaxşı bilirik. (Muminun surəsi, 96)**

Ayədə görüldüyü kimi, Allah möminlərə, pisliyə qarşı ən gözəl rəftarla qarşılıq verdikləri təqdirdə xeyirli bir nəticə əldə edəcəklərini vəd etmişdir. Hətta qarşılarındakı insanla aralarında düşmənçilik kimi bir vəziyyət olsa belə səmimi bir dostluq meydana gələ biləcəyinə diqqət çəkmişdir.

Bu, eyni zamanda inananların mərhəmət anlayışlarının da gərəyidir. Qarşı tərəfin Allahın bəyənməyəcəyi pis davranışda olduğunu gördükləri zaman, hər şeydən əvvəl bunun o insanın axirəti baxımından riskli bir vəziyyət

olduğunu düşünərək, qürur və təkəbbürə qapılmadan, təmkinli və təvazökar bir şəkildə yaxınlaşarlar; təvazökar üslubdan istifadə edirlər. Quran əxlaqını yaşamayan insanlarda olduğu kimi "səhv olan, pisliyi edən qarşı tərəf, əvvəl o göz yumsun" ya da "nə edirsə etsin" kimi bir məntiqlə hərəkət etməzlər. Gözəl rəftarı kim göstərsə, Allahın o insanın rəftarından məmnun olacağını və pisliyə məruz qalındığı halda gözəlliklə davranmağın Qurana ən uyğun olan rəftar olduğunu bilirlər. Bu səbəblə də, təvazökar olmanın bir itki deyil, əksinə böyük bir qazanc olduğunu düşünərək hərəkət edərlər.

İman edənlər həyatları boyunca hər cür insanla qarşılaşarlar. Amma qarşılarındakı insanların rəftarlarına görə, onlar da əxlaq anlayışlarını dəyişdirməzlər. Qarşı tərəf məsxərəçi üslubunda danışa bilər, çirkin sözlər işlədə bilər, hirslənə bilər, pislik edə bilər ya da düşməncə rəftarlar sərgiləyə bilər. Ancaq möminin nəcibliyi, təvazökarlığı, mərhəmətli və mülayim rəftarı heç bir zaman dəyişməz. Ona deyilən pis sözə pis sözlə cavab verməz. Lağ edənə lağ ilə, qəzəbə qəzəblə cavab verməz. Qəzəblənən bir insana qarşı sakit və təmkinli olar. Sərt rəftara qarşılıq, onu etdiyindən utandıracaq, gözəl əxlaqa yönəldəcək təmkinlilik və mərhəmət anlayışı ilə hərəkət edər.

Əlbəttə möminin bu rəftarları tamamilə ağıllı bir ölçüdə olur; özünü zərərə uğrayacağı bir vəziyyətə salmaz. Nə özünün, nə də digər möminlərin haqsızlığa, ya da zərərə uğramasına icazə verməz. Amma bir tərəfdən də göstərdiyi gözəl rəftarlarla, Quranda əmr edilən gözəl əxlaqın təbliğini etmiş olar. Allahın bəyəndiyi əxlaqı tətbiq edərək qarşı tərəfi din əxlaqına isindirməyə çalışır.

Həmçinin bunu da heç unutmamaq lazımdır: Qarşı tərəfin pis əxlaq göstərməsi insanın özünün də pis əxlaq göstərməsinə bir səbəb deyil. Hər insan Allaha qarşı etdiklərindən tək başına məsuldur. Üstəlik, pis bir rəftara qarşı şəfqət, mərhəmət və gözəl əxlaq göstərmək Qurana görə üstün bir əxlaqın göstəricisidir. Çünki möminin bu gözəl münasibəti, onun Allaha olan bağlılığının gücünü və şiddətini göstərir. Bəhsi keçən şəxs bu əxlaqı yalnız Allahın razı olması üçün səbirlə tətbiq edir.

Quran əxlaqını yaşamaq mövzusunda göstərdikləri bu üstün səbrin qarşılığında da Allah bu kəslərin mükafatlarını iki dəfə verəcəyini belə bildirir:

**Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər. (Qəsas surəsi, 54)**

# İnsanlara yaxşılıqla davranmaq

**Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq. O Saat mütləq gələcəkdir. Odur ki, Sən onları gözəl tərzdə bağışla. (Hicr surəsi, 85)**

Allah möminlərə "gözəlliklə davranmağı" əmr etmişdir. Bu, möminin Allah qorxusundan və Qurana olan bağlılığından qaynaqlanan sabit əxlaq anlayışıdır. Bu səbəblə, mömin həyatı boyunca bu əxlaqdan güzəştə getməz və Allahın razılığını qazanmaq üçün ətrafındakı insanlara gözəlliklə davranar.

Qarşı tərəfin varlı, ya da kasıb, yaşlı və ya uşaq, qadın, ya da kişi olmasının möminin göstərəcəyi əxlaq baxımından heç bir əhəmiyyəti yoxdur. Mömin bu rəftarına qarşılıq insanlardan və dünyadan mənfəət ummadığı üçün insanları bu tip xüsusiyyətlərinə görə qiymətləndirməz. Necə ki, Allah bir ayəsində möminlərə bu mövzudakı ölçünü də bildirmişdir:

**Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz kölə və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah lovğalıq edənləri və özünü öyənləri sevmir. (Nisa surəsi, 36)**

Mömin Allahın əmr etdiyi hər kəsə qarşı gözəl rəftarlar göstərir. Ancaq bu, qarşı tərəfin yanlış olan fikirlərini təsdiq edən, ya da yanlış davranışlarına göz yuman bir yaxşılıq anlayışı deyil. Mömin doğru və haqq olan bir mövzuda

Allahın göstərdiyi yoldan əsla güzəştə getməz. Əgər qarşı tərəfin yanlış bir rəftarı varsa, yenə gözəl bir tərzlə, mərhəmətlə və insaniyyətlə bunu ona göstərməyə çalışar və doğrusunu mütləq izah edər. Möminlərin inkar edənlərə din əxlaqını izah edərkən ortaya qoyduqları rəftar bu mövzuya gözəl bir nümunə təşkil edər. Quranda bu mövzudan bəhs edən nümunələrdən biri, hz. Musanın, o dövrdə Misirin idarəçisi olan Firona dini təbliğ etmə tərzidir. Allah, hz. Musaya, Firona dini izah etməsini ancaq bunu edərkən yumşaq söz söyləməsini əmr etmişdir:

**Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin. Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!" (Taha surəsi, 42 -44)**

Allahın bu əmri üzərinə hz. Musa və qardaşı hz. Harun Fironun bütün zalımlığına, kobudluğuna və qürurunu baxmayaraq mərhəmətli və təvazökar rəftarlarını mühafizə etmişlər, ona gözəlliklə yaxınlaşmışlar.

## İnsanların arasını düzəltmək

Daha əvvəl də bəhs etdiyimiz kimi, iman edənlərin yaşadıqları mərhəmət anlayışı, insanlara hər zaman gözəlliklə davranmalarını təmin edər. Heç bir zaman davakar, tərs, ara vuran rəftar sərgiləməz və ətraflarındakı insanları da bu mövzuda doğru istiqamətləndirərlər. Quran əxlaqını yaşamaları səbəbiylə ən əvvəl özləri hər zaman sülhsevər, anlayışlı və barışdırıcı xarakter göstərərlər. Din əxlaqından uzaq yaşayan kəslərin tez-tez yaşadıqları "incimə", "dava etmə", "mübahisə etmə" kimi rəftar pozuqluqlarının Quran əxlaqında yeri olmadığını bilirlər. Bu səbəblə də, nə olursa olsun bağışlama, xoş görmə və qarşı tərəfi gözəl olana çəkmə yolunu seçirlər.

Digər insanları da daim bu əxlaqı yaşamağa təşviq edərlər. Onlara Allahın belə bir əxlaqı daha çox bəyənəcəyini və axirətdə daha gözəl bir

qarşılığı olacağını xatırladarlar. İnsanların arasındakı ayrılıqların, ya da anlaşılmazlıqların həll yolu tapmasına vəsiləsi olduqları üçün həmçinin özləri də Allahın razı olacağı bir rəftarı etmiş olurlar. Allah onların sırf Rəbbimizin razılığını axtararaq göstərdikləri bu əxlaqa böyük bir mükafatla qarşılıq verəcəyini bildirmişdir:

**Onların gizli söhbətlərinin çoxunda xeyir yoxdur. Sədəqə verməyi və ya yaxşılıq etməyi yaxud da insanlar arasında sülh yaratmağı əmr edən şəxsin pıçıldaması isə istisnadır. Kim bunu Allahın razılığını qazanmaq üçün edərsə, Biz ona böyük mükafat verərik. (Nisa surəsi, 114)**

## İbadətlərdə qətiyyət göstərmək

Allah Quranın bir çox ayəsində, iman etdiklərini söylədikləri halda ürəklərində həqiqi imanı yaşamayan səmimiyyətsiz insanlar haqqında məlumat vermişdir. Bu kəslər, müəyyən mövzularda möminlərin rəftarlarına oxşar davranışlar göstərə bilərlər. Quranda bildirilən bəzi ibadətləri yerinə yetirə bilər, Allahın çəkinilməsini bildirdiyi mövzuların bəzilərinə diqqət edərək möminlərə bənzər həyat tərzi yaşaya bilərlər, ancaq bütün bunlarda mütləq qətiyyət və səmimiyyət göstərməzlər. Bu kəslərin səmimiyyətsizliyinə qarşılıq iman edənlərin Allahın əmrlərini yerinə yetirmək mövzusundakı qətiyyətləri çox kəskindir. Bu mövzudakı ən gözəl nümunələrdən biri Peyğəmbərimiz (s.ə.v) dövründə yaşamış olan müsəlman qadınların rəftarlarıdır.

Təsəttürlə əlaqədar ayələrin endiyi dövrdə müsəlman qadınlar, ətraflarındakı insanların qınamasından, ya da mənfəətlərinə bir zərər gəlməsindən qorxmadan bu hökmü yerinə yetirmişlər. Bu mövzuyla əlaqədar olaraq hz. Aişə (rədiyallahu ənh)-dən belə rəvayət edilmişdir:

**“Baş örtüklərini yaxalarının üstünə qoysunlar” ayəsini nazil edincə mantolarını cıraraq onunla örtünmüşlər. “(İbn-i Kesir, Hadislerle Kuran-ı Kerim Tefsiri, cild: 11, səh. 5880)**

Mömin qadının təyin edici bir xüsusiyyəti Allah (c.c)-nin Quranda əmr etdiyi üzrə geyimində təsəttür ölçülərinə diqqət etməsi və başını örtməsidir. Nur surəsindəki örtünməylə əlaqədar ayələr hicrətdən sonraki dövrdə endirilmişdir:

**“Şeybə qızı Safiyə izah edir və deyir ki: Biz hz. Aişənin yanında ikən bir qisim xanımlar Qureyşli qadınların vəziyyətini və fəzilətlərini izah etmişdilər. Bunun üzərinə hz. Aişə buyurdu ki; “şübhəsiz ki, Qureyşli qadınların üstünlüyü vardır. Amma Allaha and içirəm ki, mən ənsarın qadınlarından daha çox Allahın Kitabını təsdiq edən və Qurana inanan fəzilətli kəslər görmədim.” Nur surəsindəki “baş örtüklərini yaxalarının üstünə qoysunlar” ayə-i kəriməsi nazil olduğunda ərləri onların yanlarına getdilər və onlara Allah (c.c)-nin bu mövzuda nazil etdiyi ayəni oxudular. Hər bir kişi arvadına, qızına, bacısına və yaxınlarına bu ayəni oxuyurdu. Aralarında elə bir xanım olmadı ki, baş örtüsünü yaxası üzərinə qoymasın. Allahın endirdiyi kitabındakı hökmünə inandıqlarından və təsdiq etdiklərindən libaslarına büründülər ...” (İbn-i Kesir, Hadislerle Kuran-ı Kerim Tefsiri, cild: 11, səh. 5880)**

Peyğəmbərimiz (s.ə.v) dövründəki müsəlman qadınların bu qətiyyətləri bütün inananlara nümunə olmağa davam edir.

Həyatı yalnız dünya həyatı ilə məhdud sanan insanlar dünyada etdikləri yaxşılıqların və pisliklərin, axirətdə qarşılarına çıxacağını unudarlar. İnananlar isə axirətin varlığına şübhə duymadan inandıqları üçün hər etdiklərinin qarşılığını alacaqlarını və etmədiklərindən ötrü axirətdə peşmanlıq yaşaya

biləcəklərini bilirlər. Bu səbəblə də, gözəl əxlaqın hər incəliyini ən gözəl şəkliylə tətbiq etməyə çalışırlar.

## Fədakarlıq göstərmək

Mütləq bir qətiyyətlə və heç bir şərt qoşmadan yaşanılan fədakarlıq möminlərin əhəmiyyətli əxlaq xüsusiyyətlərindən biridir. Bir çox mövzuda möminləri təqlid edə bilən, ancaq səmimi imanı gərəyi kimi yaşamayan bəzi insanlar, yalnız Allahın razılığını, sevgisini və axirəti hədəfləyərək fədakarlıq etmələri lazım olduqda buna güc yetirə bilməzlər. Bəzən insanlara göstəriş edə bilmək, bəzən həqiqi əxlaq anlayışlarını gizləyə bilmək, bəzən də müxtəlif mənfəətlər əldə edə bilmək üçün fədakarlıq görünüşündə müxtəlif cəhdlər edə bilərlər. Ancaq qarşılığında heç bir mənfəət əldə edə bilməyəcəklərindən əmin olduqlarında bu mövzudakı istəksizlikləri ciddi şəkildə diqqət çəkər. Xüsusilə də öz tərəflərindən mənfəət itkisindən söhbət gedərsə, maddi ya da mənəvi baxımdan bir zərərə düçar olacaqlarını düşündüklərində, yalnız imanın qazandıra bildiyi bu gücü özlərində tapa bilmir və beləcə səmimiyyətsizlikləri ortaya çıxır.

İman edənlər, Allah üçün fədakarlıq göstərə biləcəkləri bir vəziyyətlə qarşılaşdıqlarında bunu imanlarını və səmimiyyətlərini göstərən bir fürsət olaraq görərlər. Dünya həyatının Allahın razılığını qazana bilmələri üçün yaradılmış qısa və keçici bir imtahan mühiti olduğunun şüuruyla hərəkət edər, bu səbəblə əsl olaraq Allahın razılığını və axirət qazancını istəyərlər. Lazım olduğunda özləri də ehtiyac içində olduqları halda, heç düşünmədən haqlarından imtina edə bilərlər. Heç bir zaman etdikləri fədakarlıqları dilə gətirərək, özlərini tərifləyəcək ya da ön plana çıxaracaq bir rəftar göstərməz və fədakarlıqlarından ötrü qarşı tərəfi minnət altında buraxmağa çalışmazlar. Quranda möminlərin bu üstün fədakarlıq anlayışları belə ifadə edilmişdir:

**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar.**

**Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

# Möminlərin axirəti üçün dua etmək

Möminlərin bir-birlərinə göstərdikləri ən gözəl mərhəmət şəkillərindən biri də bir-birlərinin yaxşılığı üçün dua etmələridir. Imanlarından ötrü Allahın dilədiyi an dilədiyi hər şeyi edə biləcək şəkildə sonsuz güc sahibi olduğunu bilirlər. Həmçinin Allah, **"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər."** (Bəqərə surəsi, 186) deyərək möminləri dua edərək Özündən istəməyə çağırmış və onların bu dualarına cavab verəcəyini bildirmişdir.

Məhz möminlər Rəbbimizin bu çağırışına könüldən qarşılıq verir və Ondan dünyadakı və axirətdəki hər cür gözəlliyi istəyərlər. Ancaq möminlərə qarşı duyduqları mərhəmət, onların da yaxşılığı üçün dua etmələrini tələb edir. Özləri üçün Allahdan nə istəyirlərsə, digər möminlər üçün də ən az bunları, hətta daha da çoxunu istəyəcək qədər üstün bir mərhəmət anlayışına sahibdirlər.

Bu mərhəmətlərinin əsl səbəbi isə cənnət və cəhənnəmin və ölümdən sonra başlayacaq olan sonsuz həyatın varlığından qəti olaraq əmin olmalarıdır. Möminlərin də sonsuz həyatlarını Allahın rəhməti içərisində cənnətlərdə keçirəcəkləri üçün Allaha həmişə dua edərlər. Allahdan, özlərinin və mömin bacı-qardaşlarının əskiklərini aradan qaldırmasını, pisliklərdən təmizləməsini, səhvlərini bağışlamasını və onlara cənnətini nəsib etməsini istəyərlər.

Şübhəsiz bu çox üstün bir əxlaqdır. Çünki insanlar ümumiyyətlə həmişə öz yaxşılıqları və rahatlıqları üçün səy göstərərlər və həmişə özlərinə istiqamətli arzular edərlər. Möminlərin həmçinin digər bacı-qardaşlarını da düşünmələri onların üstün əxlaqlarından qaynaqlanır. Quranda möminlərin bu əxlaqlarını əks etdirən dualarına çox nümunə verilmişdir:

**... "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!" (Bəqərə surəsi, 286)**

**... "Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür". (Əraf surəsi, 126)**

**Onlardan: "Ey Rəbbimiz! Bizə həm bu dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi Od əzabından qoru!" – deyənləri də vardır. (Bəqərə surəsi, 201)**

**"Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən. Ey Rəbbimiz! Həqiqətən, gerçəkləşəcəyinə şübhə edilməyən bir gündə insanları bir yerə Sən yığacaqsan. Həqiqətən, Allah vədinə xilaf çıxmaz. (Ali İmran surəsi, 8-9)**

## Sonrakı nəsillərin mömin olması üçün dua etmək

Quranda möminlərin, ölümlərindən sonra arxalarında buraxacaqları hələ yaşı kiçik olan uşaqlara qarşı dərin bir mərhəmət və sevgi ilə yaxınlaşmalarına olduqca diqqət çəkilir. Bu səbəblə möminlər öz həyatlarının sonuna yaxınlaşdıqlarında onlardan sonra

böyüyəcək olan kiçik uşaqların özbaşına qalmalarına razı olmazlar. Onlara imanlı, dürüst, etibarlı, ağıllı və gözəl əxlaqlı olmağın yollarını göstərərlər. Allahın bu mövzudakı əmri belədir:

**Qoy özlərindən sonra zəif övladlar qoyub gedəcəkləri təqdirdə onlardan ötrü qorxan kəslər yetimlərdən ötrü də qorxsunlar. Qoy onlar Allahdan qorxsunlar və doğru söz söyləsinlər. (Nisa surəsi, 9)**

Allah Quranda peyğəmbərlərdən də bu mövzuda nümunələr vermişdir. Peyğəmbərlər istər uşaqları, istərsə özlərindən sonra gələn nəsli üçün dua etmiş, onların da gözəl əxlaqlı bir müsəlman olmaları üçün səy göstərmişlər. Bu mövzuda Quranda bildirilən nümunələrdən bəziləri belədir:

**Bir zaman İbrahim demişdi: "Ey Rəbbim! Bu şəhəri əmin-amanlıq yurdu et. Məni və oğullarımı bütlərə tapınmaqdan uzaqlaşdır. (İbrahim surəsi, 35)**

**Onlar deyərlər: "Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!" (Furqan surəsi, 74)**

**O zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini qaldırarkən belə dua etdilər: "Ey Rəbbimiz! Bunu bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən! Ey Rəbbimiz! İkimizi də Sənə təslim olacaq, nəslimizdən də Sənə təslim olan bir ümmət et. Bizə ibadət qaydalarını göstər və bizim tövbələrimizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, Rəhmlisən! (Bəqərə surəsi, 127-128)**

# Möminlərin səhvləri üçün bağışlanma diləmək

**Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Sən həm öz günahlarının, həm də mömin kişilərlə mömin qadınların bağışlanmasını dilə. Allah gəzib-dolaşdığınız yeri də, gecələyəcəyiniz məskəni də bilir. (Məhəmməd surəsi, 19)**

Quran əxlaqını yaşamağın möminlərə qazandırdığı mərhəmət anlayışı, möminlərin bir-birlərinə qarşı olan düşkünlükləriylə özünü göstərir. Möminlər axirətdəki əzaba qarşı hiss etdikləri qorxunu mömin bacı-qardaşları üçün də duyarlar. Öz qurtuluşlarını istədikləri qədər digər möminlərin də Allahın razılığını və cənnətini qazanmalarını istəyərlər. Bu səbəblə də, Allahın əmr etdiyi şəkildə onların da bağışlanmaları üçün dua edərlər. Quranda möminlərin bu üstün mərhəmət anlayışlarına nümunə olan bir çox ayə vardır:

**Ey Rəbbimiz! Sən Oda saldığın kəsi rüsvay edərsən. Zalımların köməkçiləri olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə iman gətirin!" - deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və Qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!" (Ali İmran surəsi, 192-194)**

**Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə! Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!" (İbrahim surəsi, 40-41)**

Üstəlik möminlər, gəlmiş keçmiş bütün iman edənlər üçün də dua edərlər. Allaha iman edən hər insan, hansı dövrdə, harada yaşamış olursa olsun onların bacı-qardaşlarıdır. Möminlərin bu istiqamətdəki duaları bir ayədə belə bildirilir:

**Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!" (Həşr surəsi, 10)**

## Heç kimə lağ etməmək

Dinin yaşanmadığı cəmiyyətlərdə "lağ etmək" insanların özlərinə edilmədiyi müddətcə qarşı çıxmadıqları, hətta əhəmiyyətli bir əyləncə mövzusu olaraq qiymətləndirdikləri bir davranışdır. Bu səbəblə də demək olar ki, qarşılaşdıqları hər şeyi lağ mövzusu etməkdən çəkinməzlər. Bu rəftar pozuqluğu ilə əslində qarşı tərəfi alçaldaraq özlərini ucaltdıqlarına inanırlar. Onlara görə insanların şikəstlik, köklük, qısa boyluluq və s. kimi fiziki əksiklikləri ilə yanaşı dillərinin dolaşması, asqırmalar ya da ayaqlarının harasa ilişib yıxılmaları kimi hər kəsin qarşılaşa biləcəyi adi vəziyyətlər belə əhəmiyyətli lağ mövzularıdır.

Möminlər isə, belə bir rəftara heç bir şəkildə tənəzzül etməzlər. Hər şeydən əvvəl Quran əxlaqında məsxərənin yeri olmadığını və bunun Allahın bəyənmədiyi bir rəftar olduğunu bilirlər. Quranda Allahın bu mövzudakı əmri belədir:

**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar... (Hucurat surəsi, 11)**

Bununla yanaşı möminlər insanlara imanları, gözəl əxlaqları və Allaha yaxınlaşmaq üçün göstərdikləri səmimi səy nisbətində dəyər verirlər. Bu səbəblə də bir insanın boyu, çəkisi, şivəsi, şikəstliyi kimi fiziki xüsusiyyətləri hər nə qədər əskik olarsa olsun, bundan ötrü qarşı tərəfi özündən aşağı görməz və bu vəziyyətdən o adama sataşmaq üçün əsla istifadə etməzlər. Əksinə bu əskikliklərindən ötrü bu kəslərə qarşı böyük bir mərhəmət duyar və onların bu əskikliklərini aradan qaldıracaq səmimi bir səy göstərərlər. Yenə eyni şəkildə yanlarında dili topuq vuran, ayağı ilişib yıxılan, ya da bənzər şəkildə hər insanın rahatlıqla qarşılaşa biləcəyi bir vəziyyətə düşən kəsi, qətiyyən peşman edəcək bir rəftar göstərməzlər.

Həmçinin lağ kimi çirkin bir rəftarı heç bir zaman əyləncə vəsiləsi olaraq görməzlər. Çünki bir başqasının narahat olduğu söhbətdən, zarafatdan, ya da rəftardan özləri də heç bir şəkildə zövq almazlar. Özləri bu rəftara əsla yanaşmayacaqları kimi, bir insanın başqaları tərəfindən çətinliyə salındığı, xəcalətli edildiyi, ya da lağ mövzusu edildiyi hadisəyə tamaşaçı da qalmazlar. Mütləq xəcalətli qoyulmağa çalışılan kimsənin himayədarlığını öhdəsinə götürər və onu heç bir şəkildə əzdirməzlər.

Onlara edilməsini heç istəmədikləri bu rəftarların bir başqasını da necə narahat edə biləcəyini vicdanlı olduqları üçün təxmin edə bilərlər. Bu mövzuda göstərdikləri bütün bu etinalar isə tamamilə Allah qorxusundan və gözəl əxlaqlarından qaynaqlanır. Vicdanları və mərhəmət anlayışları onları lağ etmək kimi çirkin bir rəftar göstərməkdən uzaq tutar. Həmçinin Allahın lağ edənləri axirət əzabıyla xəbərdar etdiyini bilir və bu rəftardan şiddətlə qorxub çəkinirlər:

**Hər bir qeybət edənin, tənə vuranın vay halına! O şəxs ki, mal-dövlət toplayıb onu təkrar-təkrar sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır. Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur. O Od ki, qalxıb ürəklərə çatacaq. Həqiqətən, o Od onların üzərində qapanacaqdır. Özləri də orada yüksək dirəklərə bağlanmış olacaqlar**

**(Huməzə surəsi, 1-9)**

# İnsanlara xoşlanmayacaqları ləqəblər qoşmamaq

Quranda möminlərə, insanların hüquqlarına heç bir şəkildə təcavüz etməmələri məsləhət görülür. Möminlər də bu mövzuda son dərəcə diqqətli davranar və bir-birlərinə qarşı hər zaman qürurlandırıcı, hörmətli və ehtiramlı rəftar göstərərlər. Məhz bu istiqamətdə diqqət göstərdikləri əhəmiyyətli bir rəftar da insanlara, onların sevməyəcəkləri ləqəblər qoşmamaqdır.

Bilindiyi kimi bu, Quran əxlaqının yaşanmadığı cəmiyyətlərdə olduqca geniş yayılmış bir vərdişdir. Çox vaxt da ardında pis niyyət durar. İnsanlar bir-birlərinə açıq şəkildə söyləyə bilmədikləri mənfi düşüncələrini, ləqəb qoşmaq kimi xoşa gəlməyən üsullarla ifadə etməyə çalışırlar. Bəzən də məqsəd ləqəb qoşaraq qarşı tərəfi alçaltmaq, lağ etmək, ya da narahat etməkdir. Bu adlar o kəslərin əskikliklərini, ya da qüsurlarını ifadə edər xüsusiyyətdədir, bu səbəbdən hər dilə gətirildiyində bu kəslər narahat edilmiş olur.

Möminlərin isə qarşı tərəfin eşitdiyində xoşlanmayacağı, ya da narahat olacağı bir sözü qəsdən istifadə etmələri mümkün deyil. Çünki Allahın bu mövzuda qəti əmri vardır:

**... Bir-birinizə tənə vurmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır.**

**(Hucurat surəsi, 11)**

Həmçinin möminlər bir-birlərinin qüsurunu gördükdə bunu Allahın bir əmri olaraq açıq şəkildə qarşı tərəfə izah edib, onu bu qüsurundan təmizləməyə çalışırlar. Bu istiqamətdəki düşüncələrini açıq şəkildə ifadə etdikləri üçün heç bir zaman qarşı tərəfə eyham yolu ilə nələrsə izah etməyə ehtiyac duymazlar. Bu eyni zamanda möminlərin bir-birlərinə olan mərhəmətlərinin də açıq bir göstəricisidir. Bir-birlərini narahat edəcək, narahatlığa düşmələrinə səbəb olacaq, ya da incidici olacaq heç bir rəftara

icazə verməz və göstərdikləri bu gözəl rəftarlarla da Quran əxlaqını yaşamayan insanlara nümunə olarlar.

## Mirasdan ehtiyac içərisində olan kəsləri də yararlandırmaq

Əvvəldən bəri üzərində dayandığımız kimi, Allah insanlara çətin vəziyyətdə olan kəslərə qarşı mərhəmətli olmağı, onların ehtiyaclarını gördükləri halda görməzlikdən gəlməməyi tövsiyə etmişdir. Sahib olduqları malları, pulları digər ehtiyacı olanlarla bölüşməyin gözəl bir rəftar olacağına diqqət çəkmişdir. Hətta özlərinə miras qaldığında, bundan kasıb olan yaxınlarına da pay ayrılmasını ifadə etmişdir.

Məhz bu səbəblə möminlər özlərinə miras qaldığında bundan, ehtiyac içərisindəki yaxınlarına, yetimlərə və yoxsullara pay ayırırlar. Quranda Allahın bu tövsiyəsi belə bildirilmişdir:

**Əgər bölgü vaxtı orada qohumlar, yetimlər və kasıblar iştirak edərlərsə, onlara o maldan bir şey verin, özlərinə də xoş söz deyin. (Nisa surəsi, 8)**

Möminlərin bu tətbiqi, onların eyni zamanda vicdan və mərhəmət anlayışlarının üstünlüyünü də açıq şəkildə ortaya qoyur. Ətraflarında bir çox ehtiyac içərisində insan varkən, onlar mallarının ehtiyaclarından artığını yığıb saxlaya bilməzlər.

Din əxlaqını yaşamayan kəslər isə möminlərin tam əksinə, özlərinə miras və bənzər tərzdə böyük miqdarda pul qaldığında nəinki bunu paylamaq, mümkün qədər kimsəyə eşitdirməməyə çalışırlar. Çünki zəngin olduqları bilinərsə, qohumlarından, yaxınlarından və yoxsullardan bir çox insanın kömək istəyə biləcəyindən narahat olarlar. Belə bir imkanları olduğu halda ehtiyac içərisindəki insanların halını görməkdən və buna baxmayaraq onlarıköməksiz

buraxmaqdan vicdan əzabı hiss etməzlər. Hər şeyin yalnız özlərinə aid olmasını və öz mənfəətləri istiqamətində xərclənməsini istəyər, əksini də böyük bir itki olaraq qiymətləndirərlər.

Möminlər isə Allahın əmr etdiyi kimi, miras qalan mallarından bu kəslərə heç bir tələbləri olmasa da öz istəkləriylə verərlər. Onların bu mərhəmət anlayışları axirətdə belə cavab tapacaq:

**Allah onları, etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə xərclədikləri elə bir kiçik və ya böyük məsrəf, keçdikləri elə bir vadi yoxdur ki, buna görə onlara savab yazılmasın. (Tövbə surəsi, 121)**

## Hər şeyin ən gözəlini infaq etmək

Özlərinə Quranı ölçü almayan kəslər infaq etməyi, "istifadə edilməyən və köhnəlmiş əşyaların kasıblara paylanması" olaraq qəbul edər və evlərində köhnə əşya yığıldıqca bir ənənə olaraq bu vərdişi tətbiq edərlər. Ancaq bu infaqın, dəyər verdikləri mallarından hər hansı bir şey əksiltməməsinə də böyük diqqət göstərərlər. Bu kəslərin çox vaxt əsl məqsədləri, həm istifadə etmədikləri köhnə əşyalarından xilas olmaq, həm də beləcə ətraflarına bir xeyir işləmiş imici verməkdir. Allah bu cür kəslərin infaq etmələrinin göstəriş məqsədli olduğuna bir ayədə belə diqqət çəkmişdir:

**Və onlar, öz mallarını insanlara göstəriş olsun deyə xərcləyir, Allaha və axirət gününə inanmırlar. Şeytan, kimə dost olursa, artıq nə pis yoldaşdır o. (Nisa surəsi, 38)**

İnsanın, istifadəyə ehtiyac duymadığı və ya köhnəlmiş bir əşyasını başqasına verməsi, o adamı özündən daha aşağı və dəyərsiz gördüyünün işarəsidir. Belə kəslər insanlara zənginlik və ya kasıblılıqlarına görə dəyər verdikləri üçün, ehtiyac içindəki bir insan onlara görə etibar edilməyə layiq

deyil. Bu səbəbdən də sahib olduqları malların ən yaxşısını bu insanlara verməyin lazım olmadığını düşünürlər. Halbuki, Quranda belə əmr edilmişdir:

**Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından Allah yolunda xərcləyin. Özünüzə verildiyi təqdirdə ancaq göz yumub alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah Zəngindir, Tərifəlayiqdir. (Bəqərə surəsi, 267)**

Möminin mərhəmət və ədalət anlayışı isə heç bir möminin özündən daha aşağı və pis imkanlar içində yaşamasına, çətinlik çəkməsinə, köhnə, dəyərsiz və keyfiyyətsiz əşyalara layiq görülməsinə icazə verməz. İmkanları ölçüsündə ətrafındakı bütün möminlərin ən az öz standartlarında bir həyat yaşaya bilmələri üşün çalışar, infaq edər.

İnfaq edərkən əsl əhəmiyyətli olan insanın Allah rizası üçün nəfsindən imtina edə bilməsi və öz sevdiyi şeylərdən fədakarlıq edə bilməsidir. Çünki insanın özü üçün heç bir dəyər və əhəmiyyət daşımayan bir şeyi bir başqasına verməsi onsuz da fədakarlıq tələb etmir. Möminlər vicdanları sayəsində bu fərqi asanlıqla edə bilərlər. Yeməklərinin, geyimlərinin, əşyalarının yaxşı və gözəl olanlarından və özlərinin də bəyənib istəkdikləri şeylərdən infaq edərlər. Bu da qarşılarındakı insana duyduqları şəfqətin və mərhəmətin bir dəlilidir.

Allahın iman gətirənləri bu mövzuda təşviq etdiyi bir başqa ayə belədir:

**Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir. (Ali İmran surəsi, 92)**

# Ticarətdə dürüst davranmaq

Möminlərin daşıdıqları mərhəmət hissi onları həmişə digər insanlara qarşı dürüst, incə düşüncəli və anlayışlı olmağa yönəldir. Buna görə möminlər, Allahın qəti bir əmri olan "ticarətdə hiylə və saxtakarlıq etməmə" mövzusunda nəinki güzəştə getmək, möminləri zərərə uğradacaq, sıxıntıya salacaq, çətin vəziyyətdə buraxacaq ən kiçik bir səhvə, qəflətə belə icazə verməzlər. İnsanların haqlarını, ədaləti qoruma mövzusunda son dərəcə diqqətli davranırlar. Bir insanın gecə-gündüz işləyib əldə etdiyi gəlirinin haqsızlıqla yeyilməsinə səbəb olmaz, belə bir şeyə icazə də verməzlər. Bunun son dərəcə qəddar bir rəftar olacağını bilirlər. Həm özləri belə bir yola girməzlər, həm də digər insanları buna qadağan edərlər. Çünki Allahın bu mövzuyla əlaqədar qəti əmri vardır:

**Ölçdükdə ölçüyə tam riayət edin, çəkdikdə düzgün tərəzi ilə çəkin. Bu, daha xeyirli və nəticə baxımından daha yaxşıdır. (İsra surəsi, 35)**

Ayədə görüldüyü kimi, Allah möminlərə ticarətdə dürüst davranmağı, insanların haqqını yeməməyi, ölçüdə və çəkidə ədalətsizlik etməməyi əmr etmiş və bunun nəticə baxımından daha gözəl olduğunu bildirmişdir.

Ancaq bəzi insanlar Allahın bu tövsiyəsini bildikləri halda bu istiqamətdə saxtakarlıq etməkdən çəkinməzlər. Kimsənin onları görmədiyi mühitlərdə bir başqasının haqqına əl uzatmaqdan, insanların pulundan, əşyasından, ya da hər hansı bir malından özlərinə pay ayırmaqdan, mallarını əskik ölçüb hesablamaqdan qorxmazlar. Kimsənin görməməsini və qarşı tərəfin də hüququnun azaldıldığını, ya da aldadıldığını anlamamasını qazanc bilirlər. Bu yoldan əldə edəcəkləri pul, ya da mənfəətin özlərinə daha çox xeyir verəcəyini güman edirlər. Halbuki bunların hamısı Allah qatında haram qılınmış rəftarlar olduğu üçün insana xeyir gətirməz. Tam əksinə Allah bu mövzuda dürüst davranmayanları belə xəbərdar etmişdir:

**Çəkidə və ölçüdə aldadanların vay halına! O kəslərin ki, camaatdan bir şey aldıqda onu tam almaq istəyərlər, onlar üçün bir şey ölçdükdə və ya çəkdikdə onu ziyana salarlar. Onlar dirildiləcəklərini fikirləşmirlərmi? Həm də əzəmətli bir gündə. O gündə ki, insanlar aləmlərin Rəbbinin qarşısında dayanacaqlar. (Mutaffifin surəsi, 1-6)**

Allahın tarix boyunca insanlara göndərdiyi elçilər də, gözəl əxlaqın gərəyi olaraq cəmiyyətlərinə həmişə ölçüdə və çəkidə ədalətli olmağı, insanların hüquqlarına riayət etməyi əmr etmişlər. Peyğəmbərlərin bu mövzuda qövmlərinə verdikləri nəsihətlər Quranın bir çox ayəsində çatdırılır. Mədyən xalqına göndərilmiş olan hz. Şüeybin qövmünə etdiyi təbliğ də bunlara bir nümunədir.

**Mədyən qövmünə də qardaşları Şueybi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Rəbbinizdən sizə açıq-aydın bir dəlil gəldi. Elə isə ölçüyə və çəkiyə tam riayət edin, insanların əşyalarını əksik verməyin və yer üzü islah olunduqdan sonra orada fəsad törətməyin. Əgər möminsinizsə, bu, sizin üçün daha xeyirlidir. (Əraf surəsi, 85)**

## Kasıb qalma qorxusuyla uşaqlarına zərər verməmək

Bir möminin bilərək və istəyərək günahsız bir insana hər hansı bir səbəbdən ötrü zərər verməsi mümkün deyil. Şərtlər nə olursa olsun bir mömin, öz dərdinə çarə tapmaq üçün bir başqa insanı çətin vəziyyətdə buraxacaq rəftar göstərməz. Özü pul qazana bilmək məqsədiylə bir başqasının maddi itkiyə məruz qalmasına razı olmaz. Öz

sağlamlığını qurtarmaq üçün bir başqasının sağlamlığını təhlükəyə atmaz. Öz qarnını doyurmaq üçün bir başqasının ac qalmasına razı olmaz. İndiyə kimi nümunələriylə bəhs etdiyimiz kimi, hər zaman qarşı tərəfin yaxşılığını, rahatlığını və hüzurunu öz ehtiyaclarından öndə tutar.

Qarşısındakı uşaq, döyüş əsiri və ya hər hansı tanımadığı bir insan da olsa mömin mərhəmətindən ötrü əvvəl onun mənfəətlərini gözləyər. Bu əxlaqı göstərə bilmək üçün heç bir fədakarlıqdan da çəkinməz. Allah, maddi çətinlik içində olduğu üçün uşaqlarına baxa bilməyəcəyini düşünən və onları öldürərək öz həyatını qurtarmağa çalışan insanların nümunələrini verərək, insanları belə vəhşi və qəddar bir rəftardan çəkindirmişdir:

**De ki: "Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şeyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk ..." (Ənam surəsi, 151)**

**Yoxsulluq qorxusundan uşaqlarınızı öldürməyin. Axı onların da, sizin də ruzinizi Biz veririk. Onları öldürmək, həqiqətən də, böyük günahdır. (İsra surəsi, 31)**

Ayədə çəkindirilən və xüsusilə Quran nazil olunmamışdan əvvəlki cahillik dövründə son dərəcə yayılmış olan "uşağını öldürmə" və ya "diri-diri torpağa basdırma" kimi zalımlıq nümunələriylə dövrümüzdə tez-tez qarşılaşılmaya bilər. Lakin yuxarıdakı ayələrin əhatəsinə girə biləcək bir davranış formasının nümunələri mətbuatda tez-tez bəhs edilir: "Yeni doğulmuş uşağı yoxsulluq səbəbiylə küçəyə atmaq."

Möminlər belə bir günah işləməkdən Allaha sığınar və Onun belə bir hərəkətə qarşı axirətdə verə biləcəyi əzabdan şiddətlə qorxar. Bundan əlavə, Quran əxlaqının onlara qazandırdığı mərhəmət anlayışı bir başqa insana, üstəlik də kiçik və günahsız bir uşağa yalnız gələcək narahatlığıyla belə bir zülm etmələrinə onsuz da icazə verməz. Əgər həqiqətən kasıblıq səbəbiylə çətin vəziyyətdə qalırlarsa, bu vəziyyətdə yenə Quranın sərhədləri çərçivəsində ağıllı həll yolları taparaq bu çətinliyi aradan qaldırmağa çalışarlar.

# QURANIN QAZANDIRDIĞI MƏRHƏMƏT ANLAYIŞI YAŞANMADIĞINDA NƏLƏR BAŞ VERƏR?

Bir cəmiyyətin rahat, hüzurlu və xoşbəxt bir həyat yaşaya bilməsinin tək yolu, Quranda təsvir edilən həqiqi mərhəmət anlayışının o cəmiyyətin insanları tərəfindən yaşanmasıdır. Quranda bildirilən bu model yaşanmadığı müddətcə insanlar hansı yolu sınayarlarsa sınasınlar qarışıqlıqdan, narahatlıqdan və ədalətsizlikdən qətiyyən xilas ola bilməzlər. Çünki mərhəmətin olmadığı yerdə zülm vardır. Zülmün hökm sürdüyü bir cəmiyyətdə ortaya çıxan model isə insanların həm maddi, həm də mənəvi cəhətdən ciddi zərərlərə uğramasına səbəb olur.

Necə ki, bu gün dünyanın dörd bir tərəfində yayımlanan xəbər proqramlarının əsas mövzusu, insanların məruz qaldığı zülm növləridir. Aclıqdan ölən, uşaqlarını yaşatmaq üçün kömək dilənən, haqsızlığa uğrayan, əzilən, yaşayacaq ev tapa bilmədiyi üçün çadırlarda yaşayan, intihar edən, hücuma məruz qalan, bir-birlərini öldürən, şikəst qoyan, döyən, müharibə edən insanların sayı hər ötən gün artır. Bu qarışıqlıq mühitinin əsas səbəbi inancsızlığın gətirdiyi zalımlıq və mərhəmətsizlikdir.

Allah qorxusuna və Allah sevgisinə əsaslanan, Qurana uyğun bir mərhəmət olmadıqda, geriyə insanları pislik etməkdən çəkindirəcək heç bir səbəb qalmaz. Mərhəmət duyğusunun tam mənasıyla yaşanmadığı bir cəmiyyətdə qadının döyülməsinin, uşaqların incidilməsinin, kasıblıq qorxusuyla öldürülmələrinin, küçəyə atılmalarının, oğurluq üçün yol kəsən, evlərə girərək ev sahiblərini öldürən insanların çoxalmasının və daha bunun kimi bir çox hadisənin qarşısında heç bir maneə qalmamış olar.

Quran əxlaqına uyğun mərhəmətin yaşanmadığı bir cəmiyyətdə zəngin olan kasıbı qorumaz, haqsızlığa uğrayanın haqqı müdafiə olunmaz, evsiz-eşiksiz qalan insana sığınacaq verilməz. Bir mənfəət olmadığı müddətcə kimsə biri üçün özünü çətinliyə salmaz. Biri küçədə ac yaşayarkən, onun ətrafındakı insanlar yüzlərlə adamın doya biləcəyi yeməkləri zibilə atmaqda bir problem görməzlər. İnsanlar bir-birlərinin malını haqsız yerə yeməkdən, saxtakar

üsullara üz tutmaqdan, başqalarının hüquqlarını istismar edərək pul qazanmaqdan çəkinməzlər.

Yenə belə bir cəmiyyətin insanları şahid olduqları saxtakarlıqlara, ədalətsizliklərə və haqsızlıqlara qarşı mübarizə aparmaz və səslərini çıxarmazlar. Başqaları üçün özlərini yormağa ehtiyac duymaz, hətta bu şəkildə olarkən başqalarının problemlərini həll etməyin böyük bir ağılsızlıq olduğuna inanarlar. Heç kimin kiməsə qarşı özünü məsul hiss etmədiyi, heç kimin kimisə qorumaq üçün özünü risk altına atmadığı və heç kimin səhvlərə, haqsızlıqlara qarşı səsini çıxarmadığı bir mühit yaranar.

Zalım və mərhəmətsiz olanlar, zəif və gücsüz olanları istədikləri kimi əzərlər. Qurana uyğun mərhəmətin və din əxlaqının yaşanmadığı bir mühitdə hər zaman hüzursuzluq, çətinlik və zülm hakimdir.

Ancaq unutmamaq lazımdır ki, mərhəmətsizlik ilk əvvəl insanın özünə zərər verir. Vicdanı ona mərhəməti əmr etdiyi və doğru olanı göstərdiyi halda bu səsi boğub, zalımlığı seçən insan heç bir zaman həqiqi mənada daxili dinclik yaşaya bilməz. Çünki vicdanı onu narahat edər və içində vicdan əzabı ilə yaşamasına səbəb olar. Hər köməyə möhtac insan gördüyündə, özünün imkanı olduğu halda bu insanlara kömək etmədiyi və onları bu həyata tərk etdiyi ağlına gələr.

Yenə eyni şəkildə hər eqoistlik etdiyində vicdanı bunun səhv olduğunu söyləyərək onu narahat edər. Vicdanın bu təzyiqindən və verdiyi narahatlıqdan xilas olmanın tək yolu isə, onun səsini dinləmək və söylədiyini etməkdir. Çünki vicdan Allahın razılığına və Qurana yönəldən bir gücdür. İnsan ancaq vicdanının səsini dinlədiyində hüzurlu olacaq şəkildə yaradılmışdır.

İnsanlar mərhəmətsizliklərini hər nə qədər ağıllarına gətirməməyə çalışsalar, ədalətsizlikləri, haqsızlıqları hər nə qədər görmək istəməsələr də vicdanları bu zalım mövqelərini onlara heç bir şəkildə unutdurmaz.

İslam əxlaqının mənimsənildiyi bir cəmiyyətdə isə həm maddi, həm də mənəvi baxımdan böyük bir rahatlıq ortaya çıxar. İnsanlar kömək lazım olduğunda ətraflarındakı insanlardan qəti olaraq kömək gələcəyini bilirlər. Kasıblara, evləri olmayan yoxsullara, imkanları olanlar sahib çıxarlar. Kiçik uşaqlar sevgi və etina gördükləri sağlam mühitlərdə böyüdülərlər. Qüvvətli olanlar zəif gördükləri insanları əzməz. Heç kəs bir-birinin haqqına təcavüz etməz. Maddi ədalətsizlik və bundan qaynaqlanan haqsızlıqların hamısı ortadan qalxar. Zalımlar azalmağa və zülm aradan qalxmağa başlayar. Heç kim

maddi imkanları yetərli olmadığı üçün sağlam, təmiz, rahat bir mühitdən məhrum qalmaz.

Göründüyü kimi, dinsizliyin gətirdiyi qarışıqlıq və zülm mühitindən xilas olmanın tək yolu, Allahın Quranda öyrətdiyi və Peyğəmbərimiz (s.ə.v)-in tövsiyə etdiyi mərhəmət anlayışını tam mənasıyla yaşamaqdır.

Zülmdən mərhəmətə dönmək isə insanın öz içində alacağı tək bir qərar və tək bir niyyət dəyişikliyinə bağlıdır. Bu niyyət dəyişikliyinin ardından həm dünyada, həm də axirətdə gözəl bir həyat yaşayacaq və Quran əxlaqını yaşamağın mükəmməlliyini görəcək. Həmçinin Allah, Quran əxlaqını yaşamağa qərar verib zülmü tərk edən kimsənin günahlarını da bağışlayacağını vəd etmişdir:

**Hər kim haqsızlıq etdikdən sonra tövbə edib əməllərini islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Maidə surəsi, 39)**

# NƏTİCƏ

Kitabın əvvəlindən bəri, Quran əxlaqının insanları necə mükəmməl bir mərhəmət anlayışına çağırdığı, mərhəmətin bütün həyata hakim olduğunda ortaya necə üstün əxlaq nümunələrinin çıxdığı və bu əxlaqa sahib insanlardan ibarət olan bir cəmiyyətin gətirəcəyi gözəllik və hüzur izah edildi. Həmçinin Qurana uyğun olan mərhəmətin yaşanmadığı bir mühitin qaranlıq ruh halı və insanlara gətirdiyi maddi və mənəvi zərərlər təsvir edilməyə çalışıldı. Bütün bu izahatlardan da aydın olduğu kimi, bu iki əxlaq modeli arasındakı fərq müqayisə edilməyəcək qədər böyük və bir o qədər də açıqdır. Quranda bildirilən mərhəmət anlayışı nə qədər şərəfli, nə qədər üstün əxlaqlı insanlar və nə qədər hüzurlu cəmiyyətlər meydana gəlməsini təmin edirsə; əks zehniyyət də o qədər zalım, hüzursuz və pis əxlaqlı insanlar yaradır.

Bundan əlavə, Allahın razılığını qazanma məqsədiylə yaşanan bu mərhəmətin təmin etdiyi gözəllik yalnız dünyayla da məhdud deyil. Onlar, axirətdə də şərəfli bir qarşılıq görəcək və bu əxlaqın gözəlliyini axirətdə də yaşayacaqlar. Çünki Allah "sağ tərəfin adamları" olaraq adlandırdığı cənnət xalqının bir xüsusiyyətinin də dünyada ikən bir-birlərinə **"mərhəməti tövsiyə etmələri"** olduğunu bildirmişdir:

**Sonra isə o, iman gətirən, bir-birinə səbir və mərhəmət tövsiyə edənlərdən olmaqdır. (Bələd surəsi, 17)**

Göründüyü kimi, Quranda əmr edilən mərhəməti yaşayan və bu istiqamətdə yaxşı işlər görənlər, həm dünyada, həm də axirətdə rahat yaşayacaqlar.

Məhz bu kitab, bütün insanların həqiqi mərhəmətin nə olduğunu bir daha düşünmələri və mərhəməti əks etdirən Quran əxlaqını nə qədər yaşadıqlarını bir daha nəzərdən keçirmələri üçün dəvətdir. İnsanların ən xeyirlilərindən olub, Allahın rəhmətini və cənnətini qazanmaq üçün, gözəl əxlaqda və mərhəmətdə səbir göstərməyə istiqamətli bir çağırışdır.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

# Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

**"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)**

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

**“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”.**
***(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)***

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

# Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam**

**funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

# Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, – demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

# Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki

dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər.

Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər”. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə

çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

# Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

**"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)**

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

**"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı**

**növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar".** ***(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)***

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

- *Australopithecus*
- *Homo habilis*
- *Homo erectus*
- *Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar,

əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

**“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”.** ***(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)***

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

**“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul**

**etmələri belə mümkündür".** ***(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)***

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar.

Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər.

Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və

beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz.

100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə

düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir.

Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz.

Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül

mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır.

Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

**“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”.** ***(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar 1997, səh. 28)***

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan

yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər.

Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir

pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın

qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən

şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar".** ***(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)***

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

**Ətrafınızdakı insanlara "mərhəmət nədir?" deyə soruşduğunuzda və ya "mərhəməti mənə təsvir edər bilərsənmi?" dediyinizdə bir çox fərqli cavab və nümunə ilə qarşılaşarsınız. Bəzisi küçədəki ac itləri doyuran qonşusunun həyatında gördüyü ən mərhəmətli insan olduğunu söyləyər. Bəzisi mərhəməti, özünə xəstə olarkən baxan bir yaxının göstərdiyi maraq və yaxınlığı nümunə verərək təsvir edər. Ümumiyyətlə təsvirlər bu şəkildə bir-birinə bənzər. Halbuki bunların heç biri həqiqi mərhəməti tam mənasıyla ifadə edə bilməz.**

**Həqiqi mərhəmətin qaynağı Allah sevgisidir. Allahı sevən bir insan, Onun yaratdığı bəndələrə və varlıqlara qarşı, onları acizlik içində yaratmış olmasından ötrü acıma və mərhəmət hiss edər. Başqalarının da bundan ötrü ona mərhəmət duyduğunu bilər. Onu yaradan Allaha qarşı duyduğu güclü sevgi və bağlılıqdan ötrü Quranda əmr edilən istiqamətdə insanlara qarşı gözəl əxlaqlı davranar.**

**Bu kitabda, möminlərin Allah sevgisinə əsaslanan mərhəmət anlayışlarının necə olduğu, Quranın əmrləri və Peyğəmbərimiz (s.ə.v)-in sünnəti istiqamətində bu əxlaqı həyatlarının hər anında necə yaşadıqları və kimlərə qarşı mərhəmət göstərdikləri izah edilir.**

MÜƏLLİF HAQQINDA: Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allahın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda bəhs edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.